

## Əzəli torpaqlarımızın işıqlı gələcəyi

8

Səs

№ 89 (6530) 21 may 2022-ci il. Qiyməti 60 qəpik

## Milli-mədəni dəyərlərimizin qorunması üçün nə etməliyik?

5



# ABŞ Azərbaycan dövlətinin apardığı siyasəti dəstəkləyir və təqdir edir!



3

*Cozef Baydenin İlham Əliyevə ünvanladığı təbrik məktubunda bir sıra mühüm və diqqət çəkən məqamlar yer almaqdadır*

## Su müharibələri başlayır: dünya quraqlıq qarşısında



13

## Erməni vəhşiliyi bəşəriyyət üçün təhdiddir



8

## Şagirdlərdən nə üçün pul yığırlar?



12

## Qızlarımızı evlərimizdən nikahsız çıxarmayaq

10

*Sadəcə dörd hərf - ailə... Iki nəfərin nikahda bir-birinə uzun bir yolçuluqda yol yoldaşı olmağa söz verdikləri an "doğulur" ailə. İlk cümləsi "xoşbəxt olun"la başlayan, lakin qarşıda hələ ömrün düz dörd fəslindən bəhs edəcək kitabın...*





## Dünyanın ən bahalı avtomobili 135 milyon avroya satılıb

16

*1955-ci ilin "Mercedes-Benz 300 SLR" modeli Almaniyada keçirilən hərracda rekord qiymətə - 135 milyon avroya satılıb...*



16

## Mane "Liverpul"u bu kluba dəyişir

*"Liverpul" futbolçusu Sadio Mane karyerasını Fransada davam etdirməyə yaxındır...*

# Azərbaycan uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirir

## Prezident İlham Əliyev ICESCO-nun Baş direktorunu qəbul edib

***Prezident İlham Əliyev dünən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib. Dövlətimizin başçısı ICESCO-nun Baş direktorunun keçən il Ağdam və Füzuliyə, bu il isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərindən məmnunluğunu bildirdi, Salim bin Məhəmməd əl-Malikin Şuşada təşkil edilən beynəlxalq konfransda iştirakını yüksək qiymətləndirdi.***





Prezident İlham Əliyev Azərbaycanın uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə ICESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, biz istərdik UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin əfsuslar olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər. Prezident İlham Əliyev qeyd etdi ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında ICESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər.

Dövlətimizin başçısı Bakıda ICESCO-nun Regional Ofisinin yaradılmasının əməkdaşlığımızın genişləndirilməsi işində əhəmiyyətini qeyd etdi, bu təşkilatın Azərbaycanın haqq işinə göstərdiyi dostluq və tərəfdaşlıq dəstəyinə görə bir daha təşəkkürünü bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən ICESCO-nun Baş direktoru işğaldan azad edilmiş ərazilərə bundan əvvəlki səfərini xatırladaraq, həmin səfər zamanı orada gördükləri mənzərənin onları çox məyus etdiyini bildirdi, həmin ərazilərdə kütləvi dağıntıları, hər şeyin yerlə-yeksan olunduğunu gördüklərini dedi. Eyni zamanda, Salim bin Məhəmməd əl-Malik budəfəki səfəri zamanı işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olduqlarını məmnunluqla qeyd etdi. Bu yerlərin çox gözəl olduğunu vurğulayan ICESCO-nun Baş direktoru artıq xarici ölkələrdən də çox sayda insanın buraya gəlmək istədiklərini bildirdi. Bu baxımdan Salim bin Məhəmməd əl-Malik dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlərini və bu səfərlər zamanı məscidləri ziyarətini, insanlarla görüşlərini, orada çalışanlara verdiyi mənəvi dəstəyi yüksək qiymətləndirdi. ICESCO-nun Baş direktoru Şuşaya səfəri zamanı kilsəyə də baş çəkdiklərini və orada bərpa işlərinin yekunlaşmaq üzrə olduğunu qeyd etdi. ICESCO-nun Baş direktoru dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

---

# Baş nazir: "Azərbaycan sülh sazişi imzalamağa və sərhədlərin delimitasiyasına hazırdır"



Dünən Müstəqil Dövlətlər Birliyinin (MDB) Hökumət Başçıları Şurasının video-konfrans rejimində iclası olub. Nazirlər Kabinetinin mətbuat xidmətindən SİA-ya bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

İclasda gündəlikdəki məsələlərə dair fikir mübadiləsi aparılıb. Əli Əsədov iclasda çıxış edərək əmin olduğunu bildirib ki, uzun illər ərzində müxtəlif səviyyələrdə yaranmış sıx əlaqələr, habelə birgə işin müsbət təcrübəsi bundan sonra da MDB çərçivəsində səmərəli əməkdaşlığa şərait yaradacaq.

Baş nazir dünyada indiki epidemioloji vəziyyətin post-pandemiya dövrünün tezliklə başlanacağını proqnozlaşdırmağa imkan verdiyini qeyd edərək Azərbaycanda COVID-19-la bağlı vəziyyəti müsbət qiymətləndirib. Pandemiyanın aradan qaldırılmasında vaksinasiya prosesinin mühüm rolunu vurğulayan Əli Əsədov qeyd edib ki, Azərbaycan 2021-ci ilin əvvəlindən vaksinasiyaya başlamış ilk ölkələrdən biri olub. Bildirilib ki, ölkədə iqtisadi canlanmanın aşkar əlamətləri müşahidə edilir, iqtisadiyyat bərpa olunmağa başlayıb. Cari ilin birinci rübündə iqtisadi artım 6,8 faiz təşkil edib.

Əli Əsədov Şura üzvlərinin diqqətini regionda münaqişədən sonrakı vəziyyətə də cəlb edib. Baş nazir münaqişənin keçmişdə qaldığını qeyd edərək, bir daha Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırıla bilən olmağa sadiqliyini ifadə edib. Baş nazir deyib: "Bizim siyasətimiz tamamilə açıq və aydındır. Biz Cənubi Qafqazın sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət regionuna çevrilməsi məqsədilə konstruktiv dialoq və birgə iş üçün açığıq".

Sülh sazişi ilə əlaqədar Azərbaycanın irəli sürdüyü beş əsas prinsipin Ermənistan tərəfindən qəbul edildiyini bildirən Baş nazir deyib: "Bu beş prinsip beynəlxalq hüququn əsas prinsipləridir, BMT-nin Nizamnaməsinə və Helsinki Yekun Aktına müvafiqdir".

Qeyd olunub ki, Azərbaycan maksimum konstruktivlik və xoş məram nümayiş etdirərək Ermənistan ilə münasibətləri normallaşdırmağa, sülh sazişi imzalamağa və sərhədlərin delimitasiyasına hazırdır. Şura üzvlərinin diqqətinə çatdırılıb ki, Azərbaycan sülh müqaviləsinin hazırlanması üzrə öz nümayəndə heyətinin, habelə Ermənistan ilə sərhədlərin delimitasiyası və demarkasiyası üzrə milli komissiyanın tərkibini artıq müəyyən edib. Bununla bərabər, Əli Əsədov qeyd edib ki, Azərbaycan Ermənistanın Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Üçtərəfli Bəyanatı çərçivəsində öz üzərinə götürdüyü öhdəliklərin tam həcmdə yerinə yetirilməsini gözləyir.

Bildirilib ki, 2020-ci il 9-10 noyabr tarixli Üçtərəfli Bəyanatın erməni silahlı dəstələrinin Azərbaycan Respublikası ərazisindən kənara çıxarılmasını nəzərdə tutan 4-cü bəndinin hələ yerinə yetirilməmiş qalması Azərbaycan tərəfini narahat edir.

# Şlomo Moşe Amar: "Azərbaycanda gördüyüm qonaqpərvərliyi, tolerantlıq və mehribanlıq mühitini heç yerdə görməmişəm"



***Dünyanın bir çox ölkələrində olmuşam, krallarla, dövlət başçıları ilə görüşmüşəm. Ancaq Azərbaycanda gördüyüm qonaqpərvərliyi, səmimiyyəti, tolerantlıq və mehribanlıq mühitini heç yerdə görməmişəm. Azərbaycan fövqəl ölkədir. Azərbaycan Prezidentinə, xalqına xeyir-dualarımı ifadə edir, minnətdarlığımı bildirirəm.***

Bu fikirləri Parisdə səfirliyimizin Mədəniyyət Mərkəzində keçirilən Ravvinlərin Konqresində iştirak edən İsrailin baş ravvini Şlomo Moşe Amar AZƏRTAC-a müsahibəsində deyib. Azərbaycana ilk dəfə 13 il əvvəl gəldiyini bildirən baş ravvin Şlomo Moşe Amar həmin vaxt Heydər Əliyev Fondu və "Or-Avner" Fondu tərəfindən yəhudi uşaqlar üçün inşa edilmiş "Xabad-Or-Avner" təhsil mərkəzinin açılış mərasimində iştirak etdiyini deyib.

"Azərbaycan dövləti tərəfindən Bakıda tikilmiş yəhudi uşaqlar üçün məktəbin açılışında iştirak etdim. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva da açılış mərasimində iştirak edirdilər. Açılış mərasiminə bir çox nazirlər də qatılmışdılar. Azərbaycan Prezidentinin və hökumət nümayəndələrinin məktəbin açılışında iştirak etməsi dövlətin bu işə verdiyi əhəmiyyəti əks etdirirdi.

Prezident İlham Əliyev yəhudi nümayəndələrlə birlikdə sinif otaqlarına ziyarət edəndə, uşaqlardan birinə sual verdi. Həmin anlar çox təsirli idi. Vurğulamaq istəyirəm ki, bir çox ölkələrdə olmuşam, krallar, dövlət başçıları ilə görüşmüşəm. Ancaq Azərbaycandakı qəbulu, səmimiyyəti, mehribanlığı heç yerdə görməmişəm. Azərbaycan fövqəl ölkədir", - deyə Ş.M.Amar deyib.

O qeyd edib ki, ikinci dəfə Azərbaycana dünya dini liderlərin sammitinə gəlib və orada Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. "Dünya dini liderlərinin sammitində yenidən Azərbaycan Prezidenti ilə görüşmək nəsibim oldu. Məni kabinetinə dəvət etdi. Biz 1 saata qədər söhbətləşdik və yəhudi məktəbinin açılışı mərasimini bir daha xatırladıq", - deyə İsrailin baş ravvini bildirib.

Ölkəmizlə bağlı xoş xatirələri olduğunu deyən Ş.M.Amar vurğulayıb ki, Azərbaycan xüsusi bir ölkədir, onu unutmaq olmur. Azərbaycandan öyrənməli çox şey var, xüsusilə qarşılıqlı hörməti öyrənmək lazımdır. Digər mədəniyyət və dinlərin nümayəndələrinə hörmət, başqası ilə danışmaq mədəniyyəti yüksək səviyyədədir: "Bu fürsətdən istifadə edərək, bir daha Azərbaycan Prezidentinə, hökumətinə, xalqına, ölkənin bütün ictimaiyyətinə xeyir-duamı ifadə edir və tərəqqi, sülh arzulayıram".

# ABŞ Azərbaycan dövlətinin apardığı siyasəti dəstəkləyir və təqdir edir!

## Cozef Baydenin İlham Əliyevə ünvanladığı təbrik məktubunda bir sıra mühüm və diqqət çəkən məqamlar yer almaqdadır

***Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Cozef Bayden Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Müstəqillik Günü münasibəti ilə təbrik məktubu ünvanlayıb. Təbrik məktubunda bir sıra əhəmiyyətli məqamlara toxunan ABŞ-ın dövlət başçısı ilk olaraq ölkəsinin Azərbaycanla 30 illik münasibətində mövcud olan müxtəlif sahələrdəki əməkdaşlıqlara yüksək dəyər verdiyini xüsusilə vurğulayıb.***



Belə ki, istər beynəlxalq təhlükəsizlik, istərsə də Avropa və dünya bazarlarındakı təhlükəsizlik faktorunda əsas təminatçı rolunda çıxış edən ölkəmiz eyni zamanda sabitləşdirmə siyasəti baxımından da öz önəmli məqamını tutmaqdadır. Məhz bu gerçəkliklərdən çıxış edən Cozef Bayden 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlığa verilən üstün dəyərlərdən bəhs edib.

### Azərbaycanın müxtəlif siyasi proseslərə ədalətli prizmadan yanaşması, beynəlxalq terrorizmə qarşı mübarizəsi ABŞ tərəfindən təqdir olunmaqdadır

Daha bir məqam isə budur ki, Azərbaycan dünyada sülhün və sabitliyin tərəfdarı olaraq çıxış edir və müxtəlif siyasi proseslərə ədalət prizmasından yanaşır. Bu xüsusda, Amerikanın dövlət başçısının Azərbaycanın Ukraynanın suverenliyinə verdiyi dəstəyinə, davamlı humanitar yardımlarına yüksək qiymət verməsi də diqqət çəkməkdədir.

O da sirr deyil ki, Azərbaycan müxtəlif dövrlərdə beynəlxalaq terrorizmə qarşı çıxışlarda dünya ölkələri sırasında öncül yerlərdən birini tutmaqdadır. Belə ki, bəşəriyyətə təhlükə saçan terrorizmlə qlobal mübarizədə Azərbaycanın verdiyi töhfələri kifayət qədərdir və sözügedən məktubda həmin məqama da toxunularaq vurğulanıb ki, ABŞ ölkəmizin bu mübarizəsini təqdir edir, dəstəkləyir.

ABŞ-ın Azərbaycanın terrorizmlə mübarizəyə verdiyi yüksək dəyəri həm də belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, ölkəmizin regional sabitliyin, sülhün əldə olunması istiqamətindəki fəaliyyəti alqışlanır. Beləliklə, Cənubu Qafqazda davamlı sülhə nail olmaq üçün yaranmış mövcud və mühüm imkanlar ABŞ-ın dövlət başçısı tərəfindən yüksək dəyərləndirilir, ABŞ regionumuzda yaranmış reallığı qəbul etdiyini, dəstəkləndiyini bəyan edir.

### Azərbaycanın regiondakı və beynəlxalq aləmdəki mövcud rolu yüksək dəyərləndirilir

ABŞ-ın Azərbaycan və Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinin bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcəyi qənaətində olması da sözügedən məktubda qeyd olunub. Təbii ki, bu anlamda Azərbaycanın sülh təşəbbüsləri dəstəklənir, iqtisadi, nəqliyyat və insanlararası əlaqələrin qurulması istiqamətində görülən işlərlə bağlı ABŞ rəhbərliyi öz köməkliyini göstərməsi üçün daim hazır olduğunu bildirir.

Beləliklə, hazırkı dövrdə cərəyan edən proseslərin mürəkkəb xarakterini nəzərə almaqla Amerikanın Azərbaycanın müstəqilliyinə və suverenliyinə öz dəstəyini bir daha təsdiq etməsi həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, ABŞ Azərbaycanın yalnız regionda deyil, həm də beynəlxalq məkandakı yüksək nüfuzunu təqdir edir, ölkəmizin əldə etdiyi çoxşaxəli tərəqqisini alqışlayır. Əbəs deyil ki, ABŞ qarşıdan gələn illərdə və onilliklərdə Azərbaycanla münasibətlərini daha da genişləndirmək arzusunda olduğunu özəlliklə vurğulayır.

### Bütün bunlar əlbəttə ki, cənab İlham Əliyevin qətiyyətli liderliyi, həmçinin, siyasi-diplomatik arenadakı şəxsi nüfuzu ilə izah edilə bilər

Ümumiyyətlə, ABŞ Prezidenti Cozef Baydenin müraciətində Azərbaycana verilən böyük dəyəri bilavasitə Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətinə əsaslanır. Bütövlükdə isə, bu kimi yüksək qiymətləndirilmə gerçəkliyi həm də belə bir nəticə hasil edir - burada əhəmiyyətli məqam olaraq dövlət başçımızın dünya dövlətlərinin liderləri arasında məxsusi, yüksək məqama malik olması reallığı dayanır. Və bütün bunlar əlbəttə ki, cənab İlham Əliyevin qətiyyətli liderliyi, həmçinin, siyasi-diplomatik arenadakı şəxsi nüfuzu ilə izah edilə bilər. Məhz bütün bu kimi amilləri nəzərə almaqla əminliklə qeyd etmək olar ki, ABŞ Azərbaycanla əlaqələrə yüksək dəyər verir və bu dəyərin möhkəm bağlara sahib olması üçün maraqlı olduğunu özəlliklə nümayiş etdirir.

Ən əsası isə, məhz Müstəqillik Günü ərəfəsində ünvanlanan məktubda Azərbaycan xalqına ən xoş arzuları ifadə etdiyini qeyd edən Cozef Bayden xalqlarımız arasında inkişaf və tərəqqinin davamlı olmasını diləyir, ölkələrimizin də bu istiqamətdə münasibətlərini möhkəmləndirməsində daima dəstək göstərəcəyini vurğulayır.

**Bəhruz QULİYEV,**
**"SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru**

## *Rəsmi sənədlər*

Prezident İlham Əliyev Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi və "Bakı Mühəndislik Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# İndoneziya portalları "Şuşa İli"ndən yazır

2022-ci ilin Azərbaycanda "Şuşa İli" kimi qeyd olunması çərçivəsində ölkəmizin İndoneziyadakı səfirliyinin müşaviri Gültəkin Həbiblinin bu ölkənin ANTARA Milli Xəbər Agentliyi, həmçinin "Miraj" Xəbər Agentliyi və digər saytlarında "İlin, Zəfərin mübarək, Şuşa!" sərlövhəli məqaləsi yayımlanıb. AZƏRTAC xəbər verir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" kimi tarixi sitatları ilə başlanan məqalədə 2020-ci il noyabrın 8-də Azərbaycan xalqına müraciətində Azərbaycan Prezidentinin səsləndirdiyi bu sözlərin uzun illər ərzində Şuşa həsrəti çəkən xalqımızın, dünyada yaşayan soydaşlarımızın yarasına məlhəm olduğu bildirilir. Yazıda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun Şuşanı azad etdiyi qeyd edilərək, Allahdan şəhidlərimizə rəhmət dilənir, qazilərimizə şəfa arzulanır.

Müəllif 28 ildən çox erməni işğalı altında qalan Şuşanın qədim tarixi köklərə əsaslanan mədəni irsinə böyük zərbə vurulduğunu, xalqımıza aid tarixi abidələrin, məscidlərin, müəssisələrin, kitabxana və muzeylərin dağıdıldığını, talan edildiyini vurğulayıb. Şuşanın Azərbaycana qaytarılmasından sonra qısa müddət ərzində dirçəldilməsi istiqamətində görülən bərpa-quruculuq işləri haqqında məlumat verilib. Şuşanın işğaldan azad olunmasından sonra tez bir zamanda Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızı Leyla Əliyevanın Şuşaya getməsinin hər bir azərbaycanlıya dövlətimizin öz tarixinə, mədəniyyətinə, torpaqlarına sahib çıxmağın qürurunu yaşatdığı vurğulanıb. Azərbaycan Prezidenti tərəfindən Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməsi ilə bu şəhərin bərpası və tarixi simasının özünə qaytarılması, qısa müddət ərzində Şuşanın mədəni və siyasi tədbirlərin keçirildiyi ünvana çevrildiyi bildirilib. Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalının, Vaqif Poeziya Günlərinin dünyaya səs saldığı qeyd olunub.







Şuşanın Azərbaycanda akkreditə olunan xarici diplomatların, buraya səfərləri təşkil olunan əcnəbi jurnalistlərin gözü ilə dünyaya bir daha tanıdıldığı, habelə orada Azərbaycanın BMT-yə üzv qəbul olmasının 30 illiyinə dair tədbirin keçirilməsinin bu şəhərin dünyanın siyasi arenasına çevriləcəyindən xəbər verdiyi vurğulanıb.

Bu il aprelin 22-də Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının baş tutduğu, onilliklər boyu Şuşa həsrəti ilə yaşayan azərbaycanlıların mənəvi rahatlığın, həmrəyliyin, Şuşaya qovuşmağın sevincini birgə yaşadıqları və toplantının Zəfər Qurultayı olaraq tariximizin səhifələrində əbədi yerini tutduğu qeyd edilib.

ANALİTİKA-AKTUAL

# Prezidentin tezisi: Ermənistan nəticə çıxarmalıdır, əks halda...



## Yaxud, vaxt daralır, regionun isə davamlı sülhə, sabitliyə, inkişafa və tərəqqiyə ehtiyacı var!

***Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda aparılan 44 günlük Vətən müharibəsində Zəfər əldə edildikdən sonra Azərbaycan regionda sülhün, sabitliyin, inkişafın və tərəqqinin əldə edilməsi yönündə bir sıra mühüm addımlarını atıb, bu gün də atır. Və əsasən, Cənubi Qafqazdakı həssas dövrün geridə buraxılması, qarşıdakı zamanlara optimal baxış prizmasının yaradılması istiqamətində dövlətimiz mümkün olan bütün vasitələri siyasi-iqtisadi mexanizm olaraq işə salmışdır.***

Təəssüf ki, aldığı sarsıdıcı, ağır məğlubiyyətindən sonra belə yanlış siyasətini yürütməkdə davam edən, müxtəlif qütblərə parçalanaraq yerini müəyyən edə bilməyən Ermənistan rəhbərliyi yükün sülhün əldə edilməsi yönündə heç bir münbit fəaliyyətini göstərmir. Əksinə, daha əvvəllər müxtəlif platformalarda razılaşdırılmış prinsipləri qəbul etdiyini bəyan etsə də sonradan aşkar ayağısürüşkənliyini tətbiq edir, bununla həm ölkə, həm də xalq daha ağır vəziyyətlərə doğru sürüklənir. O cümlədən, Ermənistandakı revanşist qüvvələrin də bu kimi məsələlərdə gizli, yaxud açıq sövdələşmələrə getməklə regionda sabitliyin qarşısını alması cəhdləri nəticə etibarı ilə Azərbaycan dövlətinin və xalqının səbrini yenidən tükəndirməyə başlayır.

### "Biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik"

Məhz bu xüsusda, Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Litva Prezidenti Gitanas Nausedanı qəbul edərkən keçirdiyi mətbuat konfransındakı fikirləri bir sıra mühüm nəticələri çıxarmaq üçün əsaslar verir. İlk növbədə isə fakt budur ki, dövlətimizin başçısı sülh mesajlarını verməklə müharibənin arxada qaldığını bəyan edib, amma Ermənistan rəhbərliyinin mövcud davranışlarının zərif sülhü hər an arxa plana keçirməsi mümkünlüyünə də işarə edib. Təbii ki, belə davam edə bilməz və İrəvan Bakı qarşısında üzərinə götürdüyü bütün öhdəliklərinə dərhal əməl etməlidir!

"Biz bu gün Cənubi Qafqazda münaqişədən sonrakı vəziyyəti də müzakirə etdik. Mən bir daha Azərbaycanın mövqeyini ifadə etdim ki, biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik. Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra bu əməkdaşlıq formatını yaratmaq üçün imkan var", deyə fikirlərini vurğulayan ölkə rəhbəri onu da qeyd edib ki, Azərbaycan bütün qonşuları ilə regional sülhün təmin edilməsi yönündə maraqlıdır. Ancaq Ermənistan yanlış, uğursuz addımları ilə bütün bu addımlara qarşı sanki baryerlər qoymağa cəhdlər göstərir. SİTAT: "Biz, həmçinin Gürcüstanlı həmkarlarımız ilə bu barədə fikir mübadiləsi apardıq və onlar da bu seçimi çox müsbət qiymətləndirdilər. Lakin təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının ilkin olaraq başlanmasına həvəs göstərmir. Düşünürəm ki, imkanlar əldən verilməli deyil. Çünki indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır. Postmünaqişə vəziyyətinə gəldikdə, bizdə müəyyən nikbinlik var. O fakta əsaslanaraq ki, Ermənistan rəsmi olaraq sülh müqaviləsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülən beş əsas prinsipi qəbul etmişdir".

Buradan da görünür ki, Bakı paralel olaraq səbr və təmkin nümayiş etdirir və o da əbəs deyil ki, İlham Əliyevin sözlərinə görə, İkinci Qarabağ müharibəsi qurtaran kimi Azərbaycanın açıq şəkildə sülh müqaviləsinin bağlanmasını və sərhədlərin delimitasiyasına dair birgə komissiyanın yaradılmasını dəstəklədiyini xatırladıb və eyni zamanda, ümid etdiyini bildirib ki, Ermənistan həmin prinsipləri qəbul etdiyini ehtiva edən ilkin mövqeyinə sadiq qalacaq və bu, sülh sazişi üçün əsas olacaq.

### "Biz təxminən 30 il danışıqlara sadiq qaldıq, lakin onlar sıfır nəticə verdi"

Daha bir önəmli məsələ budur ki, Prezident İlham Əliyev torpaqlarımızın işğala məruz qaldığı 30 illik dövrdə belə danışıqlara sadiq qaldığını xatırlatdı, həmin vaxtlarda da Ermənistanın bütün beynəlxalq hüquqlara qarşı çıxdığını bildirdi. Həmçinin, həmin dövrlərdə beynəlxalq siyasi arenada ikili standartların mövcudluğuna eyham vurdu, işğalçılara qarşı tələb olunan sanksiyaların tətbiq edilmədiyini xatırlatdı. SİTAT: "İkinci Qarabağ müharibəsinə gəldikdə, bildirmək istərdim ki, Azərbaycan BMT Nizamnaməsinin bizə verdiyi hüquqdan, özünü müdafiə hüququndan tam yararlandı. Biz təxminən 30 il danışıqlara sadiq qaldıq, lakin onlar sıfır nəticə verdi. Uzun müddət ərzində mən şəxsən hər zaman Ermənistana qarşı beynəlxalq ictimaiyyət tərəfindən sanksiyaların tətbiq edilməsinə çağırırdım. Əgər sanksiyalar, özü də, ciddi sanksiyalar tətbiq edilsəydi, onda, ola bilsin, heç müharibə olmazdı. Lakin əfsuslar olsun ki, Ermənistan çox xüsusi münasibətdən yararlandı və beynəlxalq hüququ kobud şəkildə pozduğuna, digər ölkənin ərazisini işğal etdiyinə baxmayaraq, Ermənistana heç bir sanksiya tətbiq edilmədi".

### "İndi isə biz ərazilərin yenidən qurulması və canlandırılması məsələsi ilə üz-üzəyik"

Beləliklə, erməni tərəfinin həmin illərdə də işğalçılıq siyasətindən əl çəkmədiyini qeyd edən dövlət başçımız nəticədə torpaqlarını müharibə yolu ilə azad edilməsini xatırlatdı və bu o deməkdir ki, əgər Ermənistanın rəhbərliyi bundan sonra da eyni mövqeyini davam etdirərsə, Azərbaycanın sülhməcburetmə əməliyyatlarına başlamaqdan başqa çarəsi qalmır. Düzdür, dövlət başçımız bunu açıq şəkildə bəyan etməsə də Onun bəyanatlarından məhz belə bir nəticəni də hasil etmək mümkündür. "Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla özü bərpa etməli oldu. BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın qoşunlarının dərhal çıxarılmasını tələb edən qətnamələrini özü icra etməli oldu. Nəhayət, döyüş meydanında və danışıqlar masasında Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdur.

İndi isə biz ərazilərin yenidən qurulması və canlandırılması məsələsi ilə üz-üzəyik. Çünki hər şey dağıdılmışdır və yerləyeksan edilmişdir. Beynəlxalq ekspertlər azad edilmiş şəhərlərdən biri olan Ağdamı "Qafqazın Hirosiması" adlandırırlar. Lakin Hirosimada olduğu kimi, burada dağıntılar atom bombasına görə olmamışdır, işğal zamanı barbar və vandallar tərəfindən həyata keçirilmişdir", Prezident İlham Əliyev vurğulayıb.

### "Biz Ermənistanı sərhədlərin delimitasiyasına başlamağa dəvət etdik"

Və ən əsası, torpaqlarımızın işğaldan azad edilməsindən sonrakı dövrdəki məsələlərə diqqət çəkən Prezident İlham Əliyev qeyd edib ki, bütün bunlardan sonra Bakı İrəvana sərhədlərin delimitasiyası ilə bağlı işə başlamağa dəvət edib, amma İrəvan aparılan danışıqlarda əldə olunan razılaşmalara rəğmən prosesi qəsdən uzadır, bu isə regionda gərginliyin qalmasına zəminlər yaradır. SİTAT: "Biz Ermənistanı sərhədlərin delimitasiyasına başlamağa dəvət etdik. Çünki təxminən 30 il ərzində Ermənistanla dövlət sərhədimiz, o cümlədən Azərbaycanın 20 faiz ərazisini təşkil edən digər rayonları işğal altında olub. Buna görə sərhədlərin delimitasiyası zərurəti aydındır. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə aprelin 6-da Brüsseldə keçirilmiş görüş zamanı razılaşdırılmışdır ki, aprelin sonuna qədər hər iki tərəf işçi qrup yaradacaq və onlar artıq öz fəaliyyətinə başlayacaqlar".

### "Bu cür məsuliyyətsiz mövqe, əlbəttə ki, narahatlıq doğurur"

O cümlədən, rəsmi Bakı üzərinə götürdüyü bütün öhdəliklərə riayət edir, beynəlxalq qanunlara sadiqliyini nümayiş etdirir, fəqət Ermənistandan bu addımlar atılmır və belə olan halda bütün məsuliyyətlər bir daha İrəvanın üzərində qalır. Halbuki, sərhədlərdə görüşlərin keçirilməsi təkliflərini də Ermənistan XİN-i təklif etmişdi. Özü tərəfindən verilmiş təkliflərin sonradan geriyə alınması isə ilk növbədə siyasi tərbiyəsizlik kimi qiymətləndirilə bilər. Dövlətimizin başçısı da məhz buna eyham vurdu və qeyd etdi: "Azərbaycan işçi qrupunu vaxtında yaratmışdır və nümayəndə heyətini ezam etməyə hazır idi. Bu, erməni tərəfi ilə razılaşdırılmışdır. Yeri gəlmişkən, sərhədlə bağlı ilk görüşün keçirilməsini təklif edən Ermənistanın Xarici İşlər Nazirliyi olmuşdur. Azərbaycan həmin təklifi qəbul etmişdir və biz nümayəndə heyətini göndərməyə hazır idik. Lakin, sonuncu gün - aprelin 29-da Ermənistan artıq razılaşdırılmış görüşü ləğv etdi. Bu, çox məyusedici məsələdir. Daha məyusedici isə, yenə də Ermənistanın ilkin təklifindən irəli gələrək, 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi təklifimizdən də Ermənistanın imtina etməsi oldu. Beləliklə, indiyədək, biz Ermənistandan hər hansı yeni tarixləri gözləyirik ki, işə başlayaq. Çünki bu cür məsuliyyətsiz mövqe, əlbəttə ki, narahatlıq doğurur".

### "Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur"

Dövlət başçımızın Ermənistanı haqlı olaraq və sərt şəkildə hədəfə alması isə paralel olaraq Azərbaycanın üzərinə götürdüyü məsuliyyətləri tam şəkildə yerinə yetirməsi ilə bağlıdır. Prezident İlham Əliyevin "Azərbaycan hər zaman öhdəliklərə sadiq olub. Aprelin sonuna qədər görüşə hazır olduğumuzla bağlı Avropa İttifaqı Şurasının prezidentinin iştirakı ilə söz vermişdiksə, biz buna sadiq idik. Lakin, biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik. Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur", bəyanatını önə sürməsi isə artıq səbrin tükəndiyini və rəsmi Bakının qarşıdakı müddətlərdə daha sərt, qətiyyətli mövqe göstərməsi mümkünlüyünü artırır. Prezidentin tezisləri və məhz bu faktora söykənir: Ermənistan nəticə çıxarmalıdır. Belə ki, vaxt daralır, regionun isə davamlı sülhə, sabitliyə, inkişafa və tərəqqiyə ehtiyacı var. Əgər rəsmi İrəvan bu dəfə də nəticə çıxarmazsa Bakının tətbiq edəcəyi digər siyasi addımları hər an işlək vəziyyətə salına bilər.

**Rövşən RƏSULOV**

*Azərbaycan qədim tarixi köklərə malik bir dövlətdir. Ən qədim zamanlardan bəri milli-mənəvi dəyərləri ilə bir çox ölkələrdən fərqlənən Azərbaycan adət-ənənələrini yaşadaraq inkişaf etdirir. Azərbaycan xalqı hər zaman milli dəyərlərə sadiq qalıb, əsrlər boyu onu yaşadaraq inkişaf etdirib. Milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasında böyük rolu vardır. Müasirləşən dünya ilə yanaşı milli dəyərlərimizi qorumaq bir qədər çətindir. Lakin milli dəyərlərimizi qoruyub gələcək nəsillərə ötürmək lazımdır.*

# Milli-mədəni dəyərlərimizin qorunması üçün nə etməliyik?

### İslam dini xalqımızın milli-mənəvi sərvətidir

Məhəmməd peyğəmbər 40 yaşı olarkən Hira mağarasında təklikdə Cəbrail mələyi ona görünmüş və ona Quranın ilk beş ayəni diktə etdi. Bu (610 il) islamın meydana gəldiyi il hesab olunur. 1993-cü ilin, iyununda xalqın təkidi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev hər bir sahədə olduğu kimi, dini ibadətgahlarımızın və abidələrimizin bərpasına, onların yenidən inşasına dair bir sıra yeniliklər etmişdir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra yüzlərlə ibadətgah inşa olunub, bir çoxları yenidən bərpa edilib. Bir sözlə dini dəyərlərimiz yenidən canlandı. Heydər Əliyev İslam dinini bizim milli-mənəvi kimliyimizin ayrılmaz bir hissəsi kimi qəbul edib və bildirib ki, dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Hazırda Ali Baş Komandan İlham Əliyevin yeritdiyi uğurlu siyasət nəticəsində əldə etdiyimiz qələbədən sonra işğaldan azad edilmiş ərazilərimizdə də dini ibadətgahlarımız yenidən təmir edilir. Qarabağın incisi sayılan Şuşada Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri yenidən bərpa edilib. Ölkəmizdə islam dininə qayğı və diqqət hər zaman özünü yüksək səviyyədə göstərmişdir.




### Dil Azərbaycan dövlətinin rəmzi kimi

Ana dilimiz müstəqil dövlətimizin, Azərbaycan xalqının ən böyük sərvətidir. Bir dövlətin ən böyük sərvəti onun özünəməxsus dilinin olmasıdır. Azərbaycan dili böyük inkişaf yolu keçən dillərdəndir. Hər bir xalqda olduğu kim Azərbaycanda da dil milli-mənəvi dəyərlərin tərkibindədir. Azərbaycan dilinin inkişaf etdirilməsi, zənginləşdirilməsi dövlətin əsas prioritetlərindəndir. Dilimiz zaman-zaman bir çox problemlərlə qarşılaşıb. Lakin Ümummilli Lider Heydər Əliyevin apardığı məqsədyönlü və düşünülmüş siyasətin nəticəsində 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi daxil edilib.

### Tolerantlıq milli-mənəvi dəyərlərimizin bir hissəsi kimi

Bu gün Azərbaycanda islam dini ilə yanaşı digər dinlərin nümayəndələri da yaşayır. Hətta onların rahat ibadət etməsi üçün onlarla kilsələr, ibadət yerləri, sinaqoqlar inşa edilib. Azərbaycan dünyada tolerant bir dövlət kimi tanınır. Hazırda ölkə ərazisində 16 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Hər bir dinin özünəməxsun qaydaları, qanunları mövcuddur. Azərbaycan dövləti hər zaman öz tolerantlığı ilə, öz humanizmi ilə seçilib. Bunun üçün də düşünürəm ki, tolerantlıq Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin bir hissəsidir. İslam dini heç bir dini ötələşdirməyib. Hər bir xalqın nömayəndəsi vətənimizdə rahat şəkildə həyatına davam edir. Ölkəmizdə hər bir dinə hörmətlə yanaşılır və ölkəmizdə yaşayan qeyri-müsəlmənlar üçün hər cür şəraitin yaradılmasına diqqət yetirilir.

### Musiqimiz mədəniyyətimizin incisi kimi

Azərbaycan xalqının zəngin və özünəməxsus mədəniyyəti vardır. Qədim zamanlardan etibarən bədii yaradıcılıq sahəsində böyük uğurlara imza atan xalqımız həmçinin musiqi yaradıcılığı sahəsində də əsrarəngiz əsərlər yaratmışdır. Azərbaycan musiqisi Şərq dünyasının ən qədim köklərinə sahibdir. Muğam musiqi dünyasının incisidir. Muğam bir çox xalqların, o cümlədən Azərbaycan xalqının milli-mənəvi irsinin formalaşmasında böyük rol oynayıb və bu gündə öz rolunu davam etdirir. Muğamın ahəngi Quran oxuyan mouzəçilərdən, melodiyası fars saraylarında çalınan musiqidən, ifa tərzi isə Azərbaycan aşıqları tərəfindən qoyulmuşdur. Muğamın ilahi bir musiqi olduğu danılmazdır. Bu sənət Azərbaycan ərazisində yaşayan ləzgilər, avarlar, gürcülər, talışlar arasında da məşhurdur. Muğam Şərq ölkələrinin klassik xalq yaradıcılığı musiqisinin əsas janrıdır. Muğam sözü iran-ərəb-türk dilində işlənilən "məqam" sözündən yaranmışdır. "Məqam" sözü simli alətlərdəki pərdə mənasına gəlir. Azərbaycan musiqisində 7 əsas, 3 köməkçi muğam vardır. Əsas muğamlar "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" və "Humayun", köməkçi muğamlar isə "Şahnaz", "Sarənc" və "2-ci növ Çahargah"dır. Düşünürəm ki, muğam bundan sonra, hətta 100 illər keçsə belə hər zamam Azərbaycan xalqının mədəniyyətində böyük rol oynayacaq. Muğamla yanaşı xalq alətlərimiz olan qaval, kamança tar, saz, tütək, zurna, ney və digər çalğı alətlərimiz də milli-mənəvi irsimizin bir hissəsidir.

### Azərbaycanın qədimliyini yaşadan tarixi abidələrimiz

Hər bir ölkənin bir tarixi, bir döyüş salnaməsi vardır. Qəbilələr, tayfalar öz torpaqlarını, xalqını qorumaq üçün qalalar, saraylar, türbələr və bir çox abidələr tikirdilər. Azərbaycanın qəhrəman sərkərdələri, döyüşçülər, şahlar, xanlar öz ərazilərini qorumaq üçün abidələr ucaltmışlar. Azərbaycan o qədər əsrarəngiz, möhtəşəm bir dövlətdir ki, onun hər qarışını gəzdikcə heyrətlənməmək əldə deyil. Hər bir bölgədə özünəməxsus abidələr, saraylar görmək mümkündür. Bu abidələr Azərbaycan dövlətinin qədimiliyindən xəbər verir. İstər Qız qalası, istər Şirvanşahlar sarayı, istər Möminə Xatun türbəsi, istər Bəzz qalası və digərləri bunların hər biri dövlətimizin keçdiyi yollardan bir mirasdır. Bu gün ölkəmizdə olan hər biri tarixi abidələrə xüsusi diqqət göstərilir. Azərbaycanın tarixi-mədəni irsinə daxil edilən bu abidələr onu göstərir ki, qədim zamanlardan bəri bu torpaqlarda yaşayan xalqlar şərəfli yaradıcılıq yolu keçərək mədəniyyət əsərləri yaratmışlar.



Yuxarıda sadalalanların hər biri Azərbaycan xalqının milli-mənəvi dəyərləridir. Bu dəyərlərin qorunması üçün bir çox layihələr həyata keçirilir. Məsələ ilə bağlı SİA-ya açıqlamasında yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov bildirir ki, qəbilə dövründən bu yana insanlar özləri üçün müəyyən qrupun dəyərlərini yaratdılar və bu dəyərlər bir müddət sonra bir xalqın, bir millətin ümumi dəyərlərinə çevrildi: "Burada etik, estetik, mənəvi, dini, elmi, ictimai, sosial və digər dəyərləri nəzərdə tutulur. Bu dəyərlərin daha sonra inkişaf edərək toplumun demək olar ki, böyük əksəriyyətinə təsir etməsi və genişlənərək kənd, qəsəbə, şəhərlərdə yaşayan insanların bu dəyərlərlə öz həyat tərzini qurması, bu dəyərlər uyğun yaşaması bir xalqı digərlərindən fərqləndirən əsas cəhətlərdəndir. Milli dəyərlər stabildirmi? Bu sual hər zaman bizi düşündürüb. Əlbəttə milli dəyərlər daşlaşmış bir format, stabil deyil. Milli dəyərlər getdikcə inkişaf edir, islahatlara məruz qalır, dəyişilir, bəziləri çıxardılır, genişləndirilir, gələcək nəsillərə ötürülür. Misal üçün demək olar ki, kiçik qız uşaqlarının evləndirilməsi düzgün olmasa da normal milli dəyər kimi qəbul edilirdi. Lakin illər keçdikcə ziyanlı tərəfləri araşdırıldı və bu dəyərdən imtina edildi. Eyni zamanda milli dəyərlərlə bağlı digər məsələlərdə də bu dəyişikliyi, canlılığı görürük. Ümumiyyətlə dəyərin özü də canlı bir orqanizm kimidir. O da uşaq kimi doğulur, böyüyür, qocalır və bəziləri ölür, bəziləri isə əbədi olaraq qalır. Azərbaycan xalqının çox ciddi, geniş, qədim ənənələrə malik milli dəyərləri vardır. İmperiyalar, işğallar, müharibələr oldu. Xalqımız uzun müddət işğal altında qaldı. Amma bizim dəyərlərimiz əcnəbi işğalçılara qarşı gələrək xalqımızı yaşatdı. Keçmişdə bir çox işğallara məruz qalsaq da dəyərlərimiz o qədər dəqiq formalaşmış institutdur ki, onlar bizi yad təsirlərdən qoruya bildi. Dəyərlər çox geniş bir anlamı özündə birləşdirir. Buraya dil, mənəviyyat, din, məshəb, adət-ənənələri özündə birləşdirir. Bunların hər biri ayrı-ayrılıqda inkişaf edərək bizim bir millət kimi formalaşmağımızda böyük rol oynayır. Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi biz 60 milyonluq Azərbaycan millətik. Bu çox böyük bir millətdir və bu millətin formalaşmasında milli-mənəvi dəyərlərimizin, xüsusən də mədəni dəyərlərimizin çox böyük rolu var. Milli dəyərlərin inkişafı, gələcək nəsillərə çatdırılması məsələsi həmişə aktual olub. Bu məsələdə biraz ehtiyyatlı olmaq lazımdır. Bütün dünyadakı mütəxəssislər, ekspertlər, araşdırmaçılar, yazıçı folklorşünaslar, xüsusən də kulturoloqlar milli dəyərlərin stabilləşməsi, dəyişməsi, gələcək nəsillərə çatdırılması ilə bağlı çox önəmli mövqeyə malikdirlər. Yəni ekspertlərin rəyi olmadan irəli sürülən təkliflər heç vaxt gerçəkləşməz. Ona görə də bu məsələdə həmin mütəxəssilərin rəyi xüsusi nəzərə alınır. Milli dəyərlər bir çox dəyərlərə nisbətən bizə məxsuz olan bir hadisədir. Milli dəyər lokaldır, hər hansısa bir xalqa aiddir. Onun da qorunması, gələcək nəsillərə çatdırılması vacibdir".



Milli Məclisin deputat Ülviyyə Həmzəyeva qeyd edib ki, milli dəyərlərimizin qorunması hər bir Azərbaycan vətəndaşının müqəddəs vəzifəsidir: "Bu gün Beynəlxalq Muzeylər Günüdür və bizim ölkəmiz başdan-başa açıq səma altında muzeydir. Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Biz milli dəyərlərimizi qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqdan keçmiş bu dəyərlər ruhunda tərbiyələndirməliyik".

Ulu Öndər milli-mənəvi dəyərlərin qorunmasında ailənin roluna da xüsusi önəm verirdi. Bəli, hər hansı sahənin sevkiməsi, qorunması təməldə olmalıdır. Bunu isə biz övladlarımıza beşikdən öyrətməliyik. Əslində hər sahəyə sevgi ilk öncə məhz elə ailədən başlamalıdır. Ulu Öndərimiz ölkəmizə rəhbərliyi dövründə milli dəyərləri milli dövlət quruculuğunun aparıcı elementinə çevirmişdir. Bu gün müstəqil Azərbaycanda milli dəyərlərimiz layiqincə qorunub saxlanılır və bunun davamı üçün hər şərait yaradılır.

Bu gün milli mənəvi dəyərlərin qorunmasında və təbliğində muzeylərin rolu danılmazdır. Hər bir xalq o zaman özünü xoşbəxt hiss edir ki, onun zəngin mədəniyyəti, musiqisi, incəsənəti var. Hər bir xalqı dünyada daha çox onun mədəniyyəti, mənəvi sərvətləri tanıdır. Bu mənada Azərbaycan vətəndaşları həqiqətən fəxr edə bilərlər ki, bizim zəngin mədəniyyətimiz var. Biz elə bir mədəniyyətə sahibik ki, onunla təkcə özümüz deyil, dünya xalqları belə fəxr duyurlar. Biz özümüzün dəyərlərini qoruyur, digər ölkələrin dəyərlərinə hörmətlə yanaşırıq.

Muzeyləri keçmişimizdən bu günümüzə çəkilən körpü də adlandırmaq olar. Çünki bu ocaqlarda, xalqımızın tarixi yaddaşı qorunub saxlanılır. Hər bir muzey eksponatında bütöv bir xalqın nəfəsi, ruhu, varlığı duyulur. Onun şad günləri, qan günləri hopmuş olur eksponatlara. Biz bir xalq olaraq, başqa xalqı qarət edib muzey qurmamışıq. Biz muzeylərimizi öz keçmiş bizə aid olan materiallardan qurmuşuq. İllərdən yadigar qalan hər saxsı parçasında, şüşə qırağında, düzülən muncuqlarda və.s insanlığın bir izi var, bizim insanların bir izi var. Onun nəfəsi duyulur. Bu mənada milli-mədəni irsimizin qorunması və təbliği sahəsində muzeylərimizin rolu əvəzsizdir. Tarix və mədəniyyət abidələrinə nəzər salsaq, görərik ki, bu diyar dünya memarlıq, arxeoloji, monumental və xatirə abidələri ilə zəngin bir ölkədir.

Bu gün ölkəmizin muzeyləri zənginləşir yenidən qurulur və bərpa olunur bu isə zamana və tarixə qalib gəlmək deməkdir. Buna görə, bu diqqət və qayğıya görə Ölkə Rəhbərimizə sonsuz minnətdar olmalıyıq. Çünki bizim ölkəmizdə heçnə unudulmur və heç kəs unudulmaz!".

**Abutel İlhamqızı**

ARAŞDIRMA

***Xalqın milli mədəniyyəti tarixində müstəsna yer qazanan xalçaçılıq sənəti dünyanın bir sıra ölkələrində yayılmış olsa da, qətiyyətlə deyə bilərik ki, bu sənət növünün beşiyi Azərbaycandır. Burada toxunan və istehsal edilən xalçalar dünyada müqayisə edilməyən nümunə kimi qəbul olunur. Bu gün paytaxtımızda fəaliyyət göstərən orijinal üslubda inşa olunan bükülmüş xalçanı xatırladan Xalça Muzeyinin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını əks etdirir.***

# Əsrlərə söykənən Qarabağın xalçaçılıq məktəbi

Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev Azərbaycan xalçasını dünyada xalçaçılıq sənətinin etalonu kimi dəyərləndirir: "Mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni, bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır".



Bu gün Azərbaycan qadın ustalarının əlləri ilə yaradılan gözəl xalçalar və xalça məmulatları Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini, habelə, Bakıda Azərbaycan xalçaları muzeyini və Azərbaycan tarixi muzeylərini bəzəyir. Xalça Azərbaycanın çox fərqli milli sərvətidir.

Azərbaycana qonaq gələn şəxsə təqdim olunan gözəl əşya xalçadır. Azərbaycandan qonaq gedərkən xarici dövlətlərə aparılıb ən dəyərli hədiyyə olaraq təqdim olunan da yenə də xalçadır. Bu cür istehsalımız olan və bütövlükdə dünyamızı özündə əks etdirən xalçamız Azərbaycanın məxsusi dəyərlərini, tarixini özündə cəmləşdirir.

Xalçaçılıq sənəti xalqın milli mədəniyyəti tarixində müstəsna olaraq yer qazanmışdır. Tarixi qədim bir dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, habelə yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyət kəsb edir. Xalçaçılığın istehsalı, tərtibi zahirən bir qədər asan görünsə də, onu yaradanların gərgin əməyinin çətinliyi dərk olunmalıdır.

1949-cu ildə aparılan arxeoloji axtarışlar zamanı xalçanın yaşının 2500 il tarixi olduğu qeyd olunur. Məlumdur ki, Azərbaycan xalçaçılıq sənəti qrup və tiplərə bölünür: Təbriz, Qazax, Gəncə və s. Hər bir ərazinin öz milli xüsusiyyətləri əsasında xalça üzərində ornamentlər gözəl bir təsvir yaradır. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq xalçaçılıq məktəbinə bölünür. Burada hər bir ərazinin təbiətinə uyğun olaraq rənglərdən istifadə olunur. Azərbaycanın şimal-şərqində yerləşən Quba xalça mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Bakı məktəbi, Abşeronun kəndlərinin xalçalarına gəlincə isə burada hazırlanan xalçalar daha yumşaqlığı, rənglərinin intensivliyi, bədii elementlərinin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Xalçaların bəzəklərində həndəsi formalı göllər, əyri xətli nəbati elementlər üstünlük təşkil edir. Bakı qrupuna aid xalçaların rəng koloritində əsasən tünd göy, nadir hallarda isə qırmızı və sarı rənglərdən istifadə edilir. Bu xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur.



### RƏNG - BOYAQ PALİTRASI ZƏNGİN OLAN QARABAĞ XALÇALARI

Azərbaycan xalçaçılıq məktəblərindən söz açarkən Qarabağ xalçaçılıq məktəbini də xüsusi olaraq qeyd etməliyik. Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx hündür və yumşaq xova malikdir. Qarabağ xalçaları həyat eşqi və parlaq koloriti ilə seçilir. Onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunub. Yazılı mənbələrdə ərəb tarixçiləri Əl-Müqəddəsi, Məsudi və b. tərəfindən göstərilir ki, X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan iri sənətkarlıq mərkəzi kimi adı çəkilən Qarabağın Dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Çanaxçı, Tuğ, Köhnə Tuğlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdılar. "Aran xalçası", "Bağçadagüllər xalçası", "Balıq xalçası", "Buynuz xalçası", "Bərdə xalçası", "Bəhmənli xalçası", "Qarabağ xalçası", "Qoca xalçası", "Qasımuşağı xalçası", "Ləmbəran xalçası", "Muğan xalçası", "Talış xalçası", "Lampa xalçası", "Malıbəyli xalçası", "Xanqərvənd xalçası", "Xanlıq xalçası", "Xantirmə xalçası", "Çələbi xalçası", "Şabalıdbuta xalçası", və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi Şuşada cəmlənmişdir. XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyaları üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları - "Bağçadagüllər xalçası", "Saxsıdagüllər xalçası", "Bulud xalçası" və s. çeşnilər toxunurdu. Qarabağ xalçalarının rəng - boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Qədim dövrlərdən Azərbaycan xalçalarının ara sahə yerliyi ənənəvi olaraq qırmızı rəngdə işlənmişdir. Qarabağ xalçalarının motivləri öz bədii dəyərinə və təsvirinin orijinallığına görə bənzərsizdir.

Mənbələrdə göstərilir ki, xalq dastanının qəhrəmanı, Şərqin böyük şairi Firdovsinin "Şahnamə" poemasında baş qəhrəman Rüstəmə həsr edilmiş Qarabağ xalçaları xüsusilə diqqəti çəkəndir. Rüstəm və Söhrab xalçalar seriyası miniatür rəngkarlığı üçün ənənəvi kompozisiya prinsiplərinin xalq ruhunda təfsiri ilə diqqətəlayiqdir. Bunlar öz ideya, bədii xüsusiyyətlərinə görə xalq xalçaçılıq sənətinin sözün əsl mənasında tayı-bərabəri olmayan inciləridir.



### QARABAĞIN XALÇA İSTEHSALI ŞUŞA ŞƏHƏRİNDƏ MƏRKƏZLƏŞİR

Xalçaçılıq sənətindən söz açarkən Şuşa xalçaçılıq sənətini də xüsusi olaraq qeyd etməliyik. Şuşa xalçaları xovunun hündür olması, əlvan, şux koloritli, çox nazik, incə xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Şuşa xalçalarını səciyyələndirən cəhət təbii boyaq maddələrin xalçalara verdiyi parlaqlıq, şux rəng palitrasıdır. Azərbaycanda olan 1500 növ boyaq bitkisinin əksəriyyəti Qarabağda olmuş, burada toxunan xalçaların ipliklərinin boyanmasında onlardan istifadə olunmuşdur. Şuşada 35-dən artıq orijinal xalça çeşnilərindən istifadə olunmaqla xalçalar toxunmuşdur. Xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunmuşdur. Şuşa həm də ipək xalçaları ilə şöhrət qazanmışdır. İpək xalçalar, əsasən, mötəbər şəxslər, zadəganlar üçün sifarişlə və ya ixrac məqsədilə toxunurdu. Mənbələrdə göstərilir ki, XVIII əsrin ikinci yarısından etibarən Qarabağın xalça istehsalı əsasən Şuşa şəhərində mərkəzləşir. Toxuduğu xalça və palazların sayı və keyfiyyətinə görə Şuşa XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi, rəngarəngliyi ilə seçilən "Ləmpə", "Qoca", "Bulud" xalçaları və "Dəst xalı-gəbə" kimi xalça dəstləri burada toxunub. Qarabağın əksər məntəqələrində, o cümlədən Şuşa şəhərində toxunan xalçalar əmtəə xarakterli olub Rusiya, Avropa, Asiya ölkələrinə ixrac olunmuşdur. Statistik məlumatlara görə, 1885-1887-ci illərdə Şuşanın xalça istehsalından gəliri 30 min rubl olmuşsa, 1890-cı illərdə bu gəlir artıq 200 min rubla çatmışdır.

Qarabağ xalçaçılıq məktəbinə məxsus "Əjdaha xalçası" Viktoriya və Albert muzeyində saxlanılır. Xalça Balıq Bu xalça Qarabağ tipinin ən geniş yayılan xalçalarından biridir. Ölkəmizin şimalında "Balıq", İran Azərbaycanında isə "Moxi" adı ilə tanınır. "Balıq" xalçası Qarabağın bütün xalçatoxuma məntəqələrində istehsal olunmasına baxmayaraq, onun əsas istehsal mərkəzi Bərdə şəhəri hesab olunurdu. XVIII əsrin ikinci yarısından isə "Balıq" xalçası Şuşa şəhərində də istehsal olunurdu.

"Qarabağ" adı ilə tanınan xalçalar Azərbaycanın bütün xalçatoxuyan məntəqələrində istehsal olunub. Azərbaycan xalçaçılıq məktəblərindən olan Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu Qasımuşağı xalçasıdır. "Qasımuşağı xalçası"nının adı Laçın rayonunun şimalında yerləşən Şamkənd, Ərikli, Kürdhacı, Çorman və Şəlvə kəndinin əhalisinin adı ilə bağlıdır. Qasım Hacı Sam oğlu qeyd-şərtsiz bir vaxtlar burada yaşayan hörmətli şəxs olub. Bu kəndlərdə yaxın keçmişə qədər yüksək növ xalçalar istehsal olunurdu. Bəhmənli xalçası isə Füzuli rayonunda yerləşən Böyük Bəhmənli kəndinin adı ilə bağlıdır. "Bəhmənli" xalçasınını orta kompozisiyası bir-birinin ardınca düzülmüş, orijinal formalı fiqurlar təşkil edir.

Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri bir sənət və dəyər əfsanəsinə çevrilib. Qəmiqayadan, Qobustandan, Kür-Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində rəmzlər dünyası yaşayır. Bu sənətin dünya mədəni irsində - YUNESKO-nun şah əsərləri sırasına daxil edilməsi Azərbaycan xalçasının bir uğuru, nailiyyəti kimi əks-səda doğurmuş oldu.

***Zümrüd BAYRAMOVA***

# 227 nömrəli tam orta məktəbdə "Qarabağa qayıtdıq!" adlı tədbir keçirilib






***Dünən Nizami rayonu 227 nömrəli tam orta məktəbdə "Şuşa ili" çərçivəsində "Qarabağa qayıtdıq!" adlı tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Milli Məclisin deputatları Ceyhun Məmmədov və Könül Nurullayeva, SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev, Nizami rayonu İcra hakimiyyətinin əməkdaşı Əli Axundov və İkinci Vətən müharibəsində qəhrəmanlıq nümayiş etdirən qazilərimiz iştirak edib.***

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra isə torpaqlarımız uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbir iştirakçıları məktəbin həyətində nümayiş olunan sərgi və kompozisiyalarla, eləcə də "Qarabağ uşaqların gözü ilə" adlı əl işlərindən ibarət sərgi ilə də tanış olublar.

Tədbirdə çıxış edən 227 nömrəli tam orta məktəbin direktoru Sevinc Hüseynova bildirib ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində biz artıq 30 ildən sonra öz dədə-baba yurdumuza qayıtdıq. Sevinc Hüseynova gənclərimizin, torpaqlarımız uğrunda döyüşən igidlərimizin qəhrəmanlığından danışıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxış edərək bildirib ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdik. Burada bir neçə amil ciddi rol oynadı: "Əgər, 90-cı illərin əvvəllərində Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bəlkə də bu gün Azərbaycan adında bir dövlət yox idi. Bu gün bu siyasəti cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün biz məğlub yox, qalib xalqıq. Bu gün torpaqlarımızı işğaldan azad etmişik".

Milli Məclisin deputatı Könül Nurullayeva bildirib ki, bu gün keçirilən tədbir çox maraqlı və düşünülmüş tədbirdir: "Bu tədbirin həyata keçirilməsində bütün müəllim kollektivinə və şagirdlərə öz təşəkkürlərimi bildirirəm. Cənab Prezidentin uğurlu siyasəti nəticəsində biz 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdik".

Tədbirdə çıxış edən SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev bildirib ki, bu tədbirin hazırlanmasına ürək qoyulub: "Bu səbəbdən tədbirdə əziyyət çəkən müəllim və şagird kollektivinə təşəkkürlərimizi bildiririk. Qeyd edildiyi kimi 44 günlük Vətən müharibəsindəki Zəfərimizin əldə olunmasında bir neçə amil əsas rol oynadı. Burada əsas amillərdən biri də Xalq-Lider amilidir. Biz illərdir itirdiyimiz torpaqlarımızı 44 gün ərzində geri qaytardıq. Bunun ən başlıca səbəbi Ali Baş Komandan, Ali Sərkərdə, güclü liderə inam idi".

Nizami rayonu İcra hakimiyyətinin əməkdaşı Əli Axundov tədbirdə əziyyəti çəkən hər kəsə təşəkkürlərinə bildirərək qeyd edib ki, Nizami rayonunda bu cür silsilə tədbirlər davam etməkdədir: "Bildiyimiz kimi cənab Prezident İlham Əliyevin müvafiq əmri ilə 2022-ci il "Şuşa ili" elan edildi. Nizami rayonunda bu məsələyə daha həssaslıqla yanaşılır". Qeyd edək ki, məktəb şagirdləri həmçinin "Qarabağ Azərbaycandır" mahnısına hazırlanmış rəqs də ifa ediblər.

***Arzu Qurbanlı***

# Mixael Hess: "Şuşa yalnız beynəlxalq hüquq baxımından deyil, ədəbi, mədəni, etnoqrafik irsə görə də Azərbaycan xalqına məxsusdur"



***Şuşa yalnız beynəlxalq hüquq və siyasi baxımdan deyil, həm də ədəbi, mədəni və etnoqrafik irsə görə Azərbaycan xalqına məxsusdur. 2022-ci ilin martında Münhendə alman dilində nəşr edilmiş "Şuşanın irsi. Azərbaycanın mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" kitabı işğalçıların "bu irsi silmək, təhrif və inkar etmək, bununla Azərbaycansız Şuşa və Qarabağ tarixi uydurmaq kimi cəfəng cəhdlərinə qarşı" elmi əsaslandırılmış dəlillər ortaya qoyub.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri kitabın müəllifi, ixtisasca türkoloq olan, ədəbiyyatşünas və tarixçi alim Almaniyanın Qiesen Universitetinin elmi əməkdaşı almaniyalı alim Mixael Hess söyləyib.

Berlin Azad Universitetində Azərbaycanın dahi şairi İmadəddin Nəsimi yaradıcılığından ikinci doktorluq dissertasiyası müdafiə etdiyini bildirən alim deyib: "Azərbaycan ədəbiyyatına da marağım buradan və ixtisasca türkoloq olmağımdan qaynaqlanır. Azərbaycan tarixi, onun müasir siyasi tarixi və inkişaf yolu da mənim elmi-tədqiqat sahəmə daxildir. Məsələn, hələ 2016-cı ildə Aprel döyüşlərindən sonra Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə və siyasi inkişafına dair "Tanklar cənnətdə. Ermənistan v? Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqiş?si" adlı kitabım Berlində alman dilində, 2020-ci ilin avqustunda isə "Qarabağ 13-cü əsrdən 1920-ci ilədək. Azərbaycan tarixinin araşdırılması" kitabım ingilis dilində nəşr edilib. Bu ilin fevralında isə bu kitabın 44 günlük Vətən müharibəsinin nəticələri əsasında aktuallaşdırılmış yeni üçüncü nəşri işıq üzü görüb".

Şuşanın mədəniyyət və ədəbiyyat tarixi, bu şəhərin və ümumilikdə Qarabağın yetişdirdiyi ədiblərin yaradıcılığı ilə bağlı elmi tədqiqatlara hələ 2015-ci ildə başladığını deyən Mixael Hess qeyd edib ki, coğrafi cəhətdən elə də böyük olmayan bu füsunkar diyardan, Şuşa və onun ətraf bölgələrindən bu qədər çox sayda şair, yazıçı, musiqişünas, bəstəkar və digər ədiblərin yetişməsi onu həmişə düşündürüb. "2020-ci ilin noyabrında Şuşanın işğaldan azad edilməsindən sonra "Şuşanın irsi. Azərbaycanın mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" kitabının üzərində intensiv işə başladıq. Kitab üzərində son işi 2021-ci il noyabrın 7-də Şuşaya səfərim zamanı tamamladıq və Berlinə qayıdıb onu çap üçün hazırlamağa başladım. Nəşrin çapa hazırlığının ən son mərhələsində Prezident İlham Əliyevin 2022-ci ili Azərbaycanda "Şuşa İli" elan etməsi barədə xəbəri aldım. Dərhal çapı dayandırdım, kitabın giriş hissəsində bu vacib faktı və onun Şuşanın 270 illik yubileyinə töhfə olmasını qeyd etdim", - deyə almaniyalı alim qeyd edib.

Vurğulanıb ki, kitabda Şuşa, Qarabağ və ümumilikdə Azərbaycanın keçdiyi vacib ümumi tarixi və mədəni-tarixi mərhələləri araşdırılır. Qərbdə ictimaiyyətin geniş məlumatlı olmadığı Şuşanın zəngin mədəni və ədəbi irsi, Azərbaycan xalqının bu sahələrdəki nailiyyətləri barədə ətraflı təhlil elmi faktlarla və mənbələr əsasında təqdim olunur.

Mixael Hess, həmçinin qeyd edib: "Azərbaycanın mədəniyyət paytaxtı, eləcə də onun incisi və mədəniyyət məbədi olan Şuşa çoxsaylı tanınmış azərbaycanlı şair, yazıçı, musiqiçi və digər mədəniyyət xadimləri yetişdirmişdir. Məhz həmin şəxsiyyətlərin yaradıcılıqları əsasında Şuşa irsinin Azərbaycan xalqının milli-mənəvi dəyərləri əsasında bərqərar olmasına dair elmi dəlillər qərbli oxucuların diqqətinə çatdırılıb. Ən mühüm nəticə odur ki, beynəlxalq hüquq və siyasi nöqteyi-nəzərindən Azərbaycana məxsus Şuşa və Qarabağ azərbaycanlı ədiblərin, musiqişünasların və digər çoxsaylı ziyalıların əsrlər boyu verdiyi misilsiz töhfə sayəsində ədəbiyyat, mədəniyyət və etnoqrafik irsə görə də Azərbaycan xalqına məxsusdur. Bunlara görə də kitabın yarımfəsillərindən birinə "Musiqili Şuşa-Azərbaycan Vyanası" başlığını vermişik. Şuşa, həmçinin Azərbaycanın mədəniyyət tarixindəki əvəzsiz roluna görə dahi Volfqanq Höte və digər alman ədiblərinin Vətəni olan Vaymar ilə də müqayisə edilib.

Şuşa 28 il 6 ay işğala altında olduğu vaxt bu irsi silmək və təhrif etmək, Azərbaycan xalqından qoparmaq üçün çoxsaylı inanılmaz və absurd cəhdlər göstərilib. Kitab işğalçıların bu irsi silmək, təhrif və inkar etmək, bununla Azərbaycansız Şuşa və Qarabağ tarixi uydurmaq kimi cəfəng cəhdlərinə qarşı elmi dəlillər ortaya qoyub".

Şuşa qalasının inşası tarixinə toxunan müəllif qeyd edir ki, bu tarix Qarabağ xanlığının banisi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Pənahəli xan Qarabağ xanlığının paytaxtı üçün əvvəlcə Bayat, sonra isə Şahbulaq qalalarını inşa etdirib. Qarabağ və Şuşa xanı İbrahimxəlil (1763-1806) əvvəllər Pənahabad adlanan şəhərə Şuşa adını verib. Bunu İbrahimxəlil xanın hansı səbəbdən etdiyi barədə bizim dövrə müxtəlif versiyalar gəlib çatıb. Kitabda, həmçinin əsaslandırılıb ki, "Şuşa" sözünün erməni dilində heç bir bilin?n etimologiyası mövcud deyil. Qarabağın xristian məlikliklərinin də ermənilərə aidiyyəti yoxdur.

Mixael Hess diqqətə çatdırıb ki, heç kim Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə həmişə xüsusi münasibətinin olmasına, xüsusilə də Vətən müharibəsində onun azad edilməsində əsas rol oynamsına şübhə edə bilməz. Azərbaycan Prezidenti, heç şübhəsiz, Şuşanın son dövr tarixində ən vacib şəxsiyyətlərdəndir. "əziz Şuşa, sən azadsan..." sözlərini həm də Şuşanın indiki vəziyyətinin bəlkə ən müxtəsər təsviri olması baxımından seçmişik. Vətən müharibəsi zamanı Şuşanın işğaldan azad edilməsi və onun bərpası Azərbaycan üçün böyük rəmzi və siyasi məna kəsb edir.

1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etm?k haqqında qərar" qəbul edilib. Sovet dönəmində Heydər Əliyevin Şuşanın inkişafında xüsusi xidmətlərinin olması kitabda faktlarla göstərilib. 2021-ci ildə Prezident İlham Əliyev haqlı olaraq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Həmçinin 2021-ci ilin avqustunda Vaqif məqbərəsinin yenidən açılışı zamanı Azərbaycan Prezidentinin 59 yaşında olmasının Heydər Əliyevin də 1982-ci ildə 59 yaşında olması ilə müqayisəsi kitabda "böyük rəmzi mənaya malik tarixin təkrarlanması" kimi dəyərləndirilib.

# Erməni vəhşiliyi bəşəriyyət üçün təhdiddir

***İki yüz ilə yaxındır ki, erməni daşnak dəstələri azərbaycanlılara qarşı soyqırımı aktları həyata keçiriblər. Bu müddətdə yüzlərlə şəhər, kənd və qəsəbə dağıdılıb, talan edilib, 2 milyon insan həyatını itirib, yüz minlərlə insan bu və digər formada sağlamlığından məhrum olunub. İnsanlıq əleyhinə yönələn erməni cinayətlərinə qarşı dünya birliyi susqunluq nümayiş etdirib. Yalnız 1905-1907 və 1918-1920-ci illərdə 1 milyon azərbaycanlı ermənilərin soyqırımı siyasətinin qurbanı olmuşdur. O dövrün tarixi mənzərəsinə nəzər salaraq demək olar ki, Rusiyada oktyabr çevrilişindən sonra Qafqazda çətin iqtisadi, siyasi şərait meydana gəlməyə başlamışdır.***

Azərbaycanda yeni siyasi şəraitdə, eləcə də tarixi irəliləyiş vaxtında əsas məsələ xalqın milli azadlıq mübarizəsinə kimlərin başçılıq edəcəyindən və necə yol göstərəcəyindən asılı idi. Həmin vaxt Bakıda hakimiyyətdə olan bolşevik təşkilatı isə Azərbaycana Rusiya daxilində muxtariyyət vermək, eləcə də müstəqil Azərbaycan dövləti yaratmaq haqqında danışmadı. 1917-ci il noyabrın 26-28-də Ümumrusiya Müəssisələr Məclisinə seçkilər keçirildi. Zaqafqaziyadan olan nümayəndələr Zaqafqaziya seymini təşkil etmək istədilər. Zaqafqaziya Seymi 1918-ci il fevralın 23-də təşkil olundu. Bu qurum ali hakimiyyət orqanı kimi fəaliyyət göstərməli idi. Seymə daxil olan Azərbaycan, gürcü və erməni fraksiyalarında daxili və xarici siyasətin bütün sahələrində narazılıqların, ziddiyyətlərin yarandığı üzə çıxdı. Zaqafqaziya Müstəqil Federativ Respublikanın elan edilməsi 1918-ci ilin aprelin 22-də qərara alındı. Lakin bu da ziddiyyətlərin qarşısını ala bilmədi. Əksinə, onun işini pozdu və narazılıqları daha da gərginləşdirdi. Belə şəraitdən istifadə edən gürcülər federasiyasının tərkibindən çıxaraq Gürcüstanın müstəqil bir dövlət olduğunu bəyan etdilər. 1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin Azərbaycan təşkilatı fövqəladə iclasına toplaşdı və Azərbaycan Milli Şurasının təşkili elan olundu. Milli Şuranın sədri M.Ə.Rəsulzadə, onun müavinləri isə H.Ağayev və M.Seyidov seçildilər. Milli Şuranın 9 nəfərdən ibarət idarə heyəti də yaradıldı. İcra orqanının sədri F.Xoyski seçildi. Həmin orqanın tərkibinə "Müsavat" partiyasından M.H.Hacınski, N.Usubbəyov, X.Xasməmmədov, M.Y.Cəfərov, "Hümmət"dən Ə.Şeyxülislamov, "İttihat"dan X.Sultanov, "Müsəlman sosialist blokun"dan X.Məlikaslanov və C.Hacınski daxil oldular. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının iclası çağırıldı. X.Xasməmmədov Azərbaycanın müstəqilliyinin elan edilməsi təklifini irəli sürdü. Beləliklə, Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul etdi. Bəyannamədə aşağıdakılar qeyd olunurdu:

**1.** Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənubi və Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycanın hüquqlu müstəqil dövlətdir.

**2.** Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqdim edilir.

**3.** AXC bütün millətlər, qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq şəraiti yaratmağa çalışır.

**4.** AXC öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial şəraitindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir.

Milli Şura iclasında ADR hökumətinin təşkil edilməsi Fətəli xan Xoyskiyə tapşırıldı. Bu vaxtlar Bakı şəhərində daxili siyasi vəziyyət mürəkkəb idi. Bakı Xalq Komissarları Sovetinin sərəncamında olan erməni daşnak ordu bölmələri özlərinin erməni daşnak komandirləri ilə birlikdə Sovet hakimiyyətinə qarşı xainlik etdilər. Bu vaxtlar daşnaklar, eserlər və menşeviklər Bakı ətrafını türklərdən müdafiə adı altında ingilis qoşunlarını Bakı şəhərinə çağırmaq üçün öz fəaliyyətlərini davam etdirirdilər.





### 1918-ci il avqustun 4-ü - general Denstervilinin arzularının puç olması

Hadisələrin belə bir vaxtında Bakı Xalq Komissarları Soveti 1918-ci il iyulun 31-də istefa verdi. Sentrokaspi diktaturasının, həmçinin eser, daşnak və menşeviklərin çağırışı sayəsində 1918-ci il avqustun 4-də ingilislər general Denstervilin başçılığı altında İranın Ənzəli limanından Bakıya hərəkət etdilər. Onlar ilk vaxtlar şəhəri Azərbaycan dövlətindən ayırmaq, həmçinin Türkiyə-Azərbaycan ordularının Bakını ələ keçirmələrinə maneçilik törətmək üçün səy göstərdilər. Lakin onların bu oyunları baş tutmadı. Sentrokaspi diktaturasının hakimiyyəti nüfuzu və əsası olmayan bir qurum idi. İngilislər 1500 döyüşçü ilə Bakıya daxil oldular. Türkiyə-Azərbaycan bölmələri Bakıya daxil olandan bir gün əvvəl isə qorxu içərisində Ənzəliyə qaçdılar.

1918-ci il sentyabrın 15-də Türkiyə-Azərbaycan hərbi qüvvələri Bakı şəhərini işğalçılardan azad etdi. ADR-in ilk görəcəyi işlərdən biri dövlətin sərhədlərini dəqiqləşdirməkdən ibarət idi. 1918-ci il iyunun 20-də Azərbaycan hökuməti Gürcüstan və Ermənistanla sərhəd məsələlərinə dair danışıqlar məsələsini irəli sürdü. Gürcüstan ilə 1919-cu ilin iyununda müqavilə imzalandı. ADR erməni daşnak quldur başçılarının Zəngəzurda və keçmiş İrəvan quberniyasında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə qarşı özünün etirazını, protestini bildirdi. Lakin 1919-cu il noyabrın 23-də Ermənistanla saziş bağlansa da, bu, kağız üzərində qaldı. Erməni millətçiləri Azərbaycana ərazi iddialarından əl çəkmədi. Belə ki, onlar əhalinin 67 faizi azərbaycanlılar olan Naxçıvanı, Ermənistanı özününkü sayırdılar. ADR elan olunan vaxt İrəvan quberniyasına daxil olan Naxçıvan tez Azərbaycanla birləşməyi qərara aldı. Lakin o vaxtkı şəraitə görə bunun hələ mümkün olmadığını nəzərə alaraq və Ermənistana tabe olmamaq üçün Naxçıvan bölgəsi 1918-ci ilin noyabrında Araz Respublikası adı altında özünün müstəqilliyini elan etdi.

Erməni millətçiləri Naxçıvan ərazisinə soxulmaq, əhalini məhv etmək istəsələr də, xalq qurbanlar versə də təslim olmadı. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək probleminin ən ağır və əsası Dağlıq Qarabağ məsələsi oldu. Erməni quldur dəstələri özlərinin işğalçılıq fəaliyyətlərini 1920-ci ilin yanvarında Zəngəzurda da davam etdirdilər. Bunu görən ADR hökuməti öz ordu bölmələrini Qarabağda topladı. Mart ayında - Novruz bayramı günü Ermənistanın daşnak rəhbərlərinin havadarlığı altında quldur dəstələri gözlənilmədən Şuşada, Xankəndidə, Əsgəranda, Tərtərdə olan Azərbaycan ordu hissələrinə basqın etdilər. Buna baxmayaraq, qiyamçı qüvvələr məhv edildi. Buranı daşnak dövlətinə birləşdirmək üçün başlanan birinci cəhdin qarşısı qətiyyətlə alındı.

1918-ci il mayın 30-da bütün dünya dövlətlərinin xarici işlər nazirliklərinə ADR-in müstəqilliyi haqqında Fətəli xan Xoyskinin imzası ilə teleqram göndərildi. Həmin il iyunun 4-ü ADR ilə Osmanlı imperiyası arasında dostluq müqaviləsi bağlandı. Tiflisdən Gəncəyə köçən Azərbaycan hökuməti 1918-ci il iyunun əvvəllərində ciddi və xarici amillərlə rastlaşdı. Bu dövrdə Nuru paşanın türk hərbi mütəxəssislərindən ibarət 300 nəfərlik dəstəsi Gəncədə idi. Fətəli xan Xoyskinin rəhbərliyi altında yeni hökumət kabineti təşkil olundu. Belə bir vaxtda öz çıxışları ilə daim xalqın hörmətini qazanmış siyasi xadimlər - M.Rəsulzadə, X.Xasməmmədov, A.Səfikürdski və başqaları siyasi fəaliyyətdən kənarlaşdırılmaq məqsədilə İstanbula göndərildilər. İyun hadisələrinə nəzər salsaq, görərik ki, irtica Milli Şuranın fəaliyyətini dayandırsa da, xalqın içindən çıxmış demokratik insanlar Azərbaycan dövlətinin azadlığını qoruya bildilər. Daxili iğtişaşlara qarşı hökumət nümayəndələrinin mübarizə apardıqları bir vaxtda, 1918-ci il iyunun 12-də S. Şaumyanın başçılığı altında Bakı Sovetinin hərbi qüvvələri Gəncə üzərinə göndərildi. Təzə qurulmuş Azərbaycan dövlətinin başı üzərini qara buludlar aldı.

Azərbaycan-Türk birləşmələri Göyçay ətrafında iyunun 27-dən iyulun 1-dək apardıqları 4 günlük döyüşlərdə Bakı Sovetinin qoşun hissələrini məğlub edərək onların hücumunu yatıra bildilər. ADR hökuməti ümumi hərbi səfərbərlik haqqında qərarı 1918-ci il avqustun 11-də elan etdi. 1894-1899-cu il anadan olan gənclər hərbi xidmətə çağırıldı. Sentyabrın 11-də hərbi nazirliyin yaradılması haqqında qanun verildi. Fətəli xan Xoyski həm də müdafiə naziri, general Səməd bəy Mehmandarov isə onun müavini təyin edildi.

### 1937-38-ci illərdə təkcə Bakıda təxminən 70 minə qədər adam sovet repressiyasının qurbanı oldu

1918-ci il sentyabrın 15-də türk ordusu Bakını azad etdi. ADR hökumətinin 1918-ci il 24 iyun tarixli qərarı əsasında üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul olundu. Həmin il noyabr ayının 9-da isə qəbul olunmuş bu bayraq üçrəngli -yaşıl, qırmızı və mavi zolaqlardan ibarət olan bayraqla əvəz olundu. Dövlətin bayrağında bu üç rəng türk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvoludur. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təsis yığıncağı oldu. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev onun birinci müavini seçildi. Xoyski hökumətin fəaliyyətinin dayandırdığını və hakimiyyətin parlamentə verildiyini bildirdi. Yenə də uzun danışıqlardan sonra hökumət kabinetinin təşkili Xoyskiyə tapşırıldı. 919-cu ilin martında Xoyski hökuməti istefa verdi. Aprelin 14-də N. Usubbəyovun rəhbərliyi altında yeni hökumət kabinetinin tərkibi parlament tərəfindən təsdiq edildi. ADR hökuməti həmin ilin noyabrında Bakı Dövlət Universitetinin açılmasını bildirdi. Orta məktəblər milliləşdirildi. Parlamentin qəbul etdiyi qərara görə xarici dövlətlərə 1919-20-ci tədris ilində 100 nəfər tələbə ezam olundu. Yeni hökumət Azərbaycan dilinə dövlət statusu verilməsi və kargüzarlıq işlərində Azərbaycan dilindən istifadə edilməsi haqqında qərar verdi. Lakin kadr çatışmazlığı bu məsələnin tam həll olunmasına imkan vermədi. Azərbaycan parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. 1920-ci il aprel ayının 28-də XI qırmızı ordu Bakıya daxil olanda burada bir güllə belə atılmadan şəhər təslim edildi. XI qırmızı ordu aprelin 29-da özünün xüsusi şöbəsini, sonra isə "ÇK" yaratdı. 1937-38-ci illərdə təkcə Bakıda təxminən 70 minə qədər adam sovet repressiyasının qurbanı oldu. Bütövlükdə isə Azərbaycanda şura hökuməti gələndən 250 min adam öldürüldü. Hələ sürgün olunanların, konslagerlərə göndərilənlərin dəqiq sayı bəlli deyil. Bu hadisələrin necə baş verməsini görkəmli tarixçi alim Z.Bünyadov açılmamış arxivlər əsasında araşdırıb üzrə çıxarmışdır. Bolşevik hökumətinə qarşı Azərbaycanda baş verən üsyanların əsas səbəbləri yadelli rus kommunist qoşunlarının müstəqil Azərbaycan dövlətini işğal etməsi idi. Üsyanda ordu və xalq kütləleri mübarizə aparırdı. "Qəhrəman" qırmızı rus ordusu isə Azərbaycana istiqlal deyil, istila gətirmişdi - milli olan hər şeyi yox edən qanlı bir istila törədildi.

Azərbaycan xalq cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, Azərbaycan xalqının tarixində çox mühüm rol oynadı. 23 ay ərzində demokratik parlament formalaşdı, xalqın maraqlarını ifadə edən hökumət, ordu yaradıldı və digər mütərəqqi qanunlar qəbul etdi, insanlara istiqlaliyyət, hürriyyət bəxş etdi. Bu barədə isə növbəti sayımızda daha geniş və ətraflı bəhs edəcəyik.

### 1987-1988-ci ildən ermənilər yarımçıq qalan cinayət əməllərini davam etdirdilər

Mövcud faktlara istinadən demək olar ki, hətta sovetlər birliyi tərkibində olduğumuz dönəmlərdə belə Stalin rejimi erməni təəssübkeşliyi nümayiş etdirərək azərbaycanlıların öz doğma yurdlarından didərgin salınması həyata keçirilib. 1948-1953-cü illərdə Stalinin yarıtmaz əmri ilə yüz minlərlə azərbaycanlı tarixi torpaqları olan İrəvan, Göyçə, Kümrü, Basarkeçər və digər yaşayış məskənlərindən çıxarılaraq Kür-Araz ovalığına köçürülmüşlər. Ermənistandan Azərbaycanı Kür-Araz ovalığına ilk köçürülənlər 1948-ci ilin iyun ayının əvvəllərində gəlirlər. İlk köçürülən Azərbaycanlı ailəsi indiki Beyləqan rayonundakı sovxozlarda yerləşdirilmişdir. Onlar sovxoz rəhbərliyi tərəfindən miçətkənlə, həmçinin torpaq sahəsi və əkin üçün toxumla da təmin olundular. 1948-ci ilin yazınadək deportasiyanın ilk qurbanlarından 320 ailə Salyan, 140 ailə Saatli, 545 ailə Sabirabad, 260 ailə Əli Bayramlı, 150 ailə Puşkin, 75 ailə Ağcabədi, 100 ailə Xilli rayonlarının quru çöllərində, susuz səhralarında, ilan mələyən düzənliklərdə yaşamağa məcbur edildi. Bu, 6400 nəfəri birləşdirən 1590 ailə idi. Həmin ilin yay aylarında deportasiya olunanların ikinci dəstəsi indiki Ermənistandan - doğulub boya-başa çatdıqları doğma torpaqlarından köçürüldülər. Bunlardan 2747 ailə - 12177 nəfər Azərbaycana pənah gətirdi.

1949-cu il noyabrın 25-də Ermənistan ərazisini bir neçə rayonundan 600 ailə - 2500 nəfər Azərbaycana deportasiya edildi. 1949-cu ildə Ermənistandan azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli Bayramlı, Kürdəmir, Mingəçevir, Salyan, Yevlax və digər rayonlara köçürülür. O dövrdə Ermənistanın dağlıq rayonlarından köçürülən azərbaycanlılar doğma yurdlarının təbii şəraitinə uyğun olan Dağlıq Qarabağ ərazisində yerləşdirilsəydi, faciəli ölüm halları olmaz, həm də bugünkü faciələrimizin kökü elə o zaman kəsilərdi. Lakin bu, belə olmadı. Təəssüf ki, ermənilər Azərbaycanda bütün sahələrdə işlə təmin olundular. Onlar zaman-zaman fürsət düşdükcə azərbaycanlılara qarşı millətçi və terrorçu siyasətlərini davam etdirmişlər. 1948-1953-cü illərdə 210 minə yaxın azərbaycanlı zorla öz tarixi torpaqlarından didərgin salınmışdır ki, sonrakı mərhələdə həmin köçürülən insanların müəyyən hissəsi yeni bölgələrə uyğunlaşa bilmədiklərindən həyatlarını itirmişlər. 1987-1988-ci ildə yenidən başlayaraq ermənilər yarımçıq qalan cinayət əməllərini davam etdirdilər. Bu, Azərbaycan xalqına qarşı edilən yeni bir vəhşilik idi. Düşünülmüş şəkildə ermənilərin törətdikləri etnik təmizləmə ardıcıl şəkildə tarix boyu davam etmişdir. Təəssüflər olsun ki, biz tarixin müxtəlif mərhələlərində belə hadisələri dərindən dərk etməmiş və xalqımıza edilən haqsızlıqlara qarşı öz səsimizi vaxtında və qədərincə qaldırmamışıq. Məhz bunların nəticəsində 1988-ci ildə erməni daşnak ünsürləri öz rəhbərlərinin tapşırığını yerinə yetirərək xalqımıza qarşı təcavüz etdilər. Öz yurdlarından zorla qısa müddətdə çıxarıldılar. Ermənistan adlanan ərazinin çox hissəsi azərbaycanlıların əsrlərlə yaşadıqları doğma diyar olmuşdur. Bu, ərazidə yaşayan azərbaycanlıların tədricən çıxarılmasına və 1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün başlanmasına gətirib çıxardı. 1988-ci il soyqırımı nəticəsində Zəngibasar rayonun azərbaycanlı kəndlərindən olan 29 nəfər həlak oldu və xeyli insan şikəst olaraq ömürlük xəstəyə çevrildi. Erməni vəhşilərinin Azərbaycana qarşı törətdikləri bu soyqırım siyasəti heç bir yerdə deyilmədi və səsimiz eşidilmədi. Bütün bu fəlakətlər o zamankı Azərbaycan rəhbərlərinin qorxaqlığı öz vəzifələrindən möhkəm yapışmaları nəticəsində baş verdi. Birinci Qarabağ müharibəsi zamanı bir milyondan çox insan öz yurdundan didərgin salınıb, 50 mindən çox adam əlil olub, 877 şəhər, kənd qarət edilib dağıdılıb.

1992-ci il fevralın 26-da erməni daşnak hərbi birləşmələri ilə birlikdə rus 366-cı motatıcı alayı əsgərləri tərəfindən Xocalı soyqırımı nəticəsində bütün şəhər yerlə-yeksan edilib, 613 dinc azərbaycanlı, o cümlədən,106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürülüb, 1000-dən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst olub. 1275 nəfər əsir götürülüb, 8 ailə bütövlüklə məhv edilib, 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılıb, başlarının dərisi soyulub, gözləri çıxarılıb, başları kəsilib, hamilə qadınların qarınları süngü ilə deşilib.

Bir sözlə, erməni vəhşiliyi dünya üçün təhdiddir. Təbii ki, bəşəriyyətin bu terrorçu dövlət funksiyasını yerinə yetirən quruluşdan xilas olmağa çalışmaması təəccüb doğurur. Deməli, dünyanın aparıcı güclərı erməni terrorundan öz siyasi və hərbi məqsədləri üçün istifadə etməyə çalışırlar. Ancaq anlamırlar ki, bir gün erməni terroru onların özlərinə qarşıda çevrilə bilər.

**İ.ƏLİYEV**

---

# Əzəli torpaqlarımızın işıqlı gələcəyi

***Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın dövr ərizində xarabazara çevrilmiş torpaqlarımız bu gün yenidən qurulur və böyük canlanma müşahidə olunmaqdadır.***

*Dövlət başçısının Sərəncamı ilə Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası məqsədilə dövlət büdcəsindən 1,0 (bir) milyon manat ayrılıb*



Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edir və bunun üçün artıq dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırılır. Təhsil müəssisələrinin inşası ilə bağlı tədbirlər də davamlı olaraq həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Şuşada inşa olunan 1 nömrəli məktəbin tikintisi davam edir. Məktəbin tikintisi cari ilin dekabr ayında yekunlaşacaq. Eləcə də Ağdam şəhərlərində məktəb tikintisi davam etdirilir. Hər iki şəhərdə ümumilikdə 960 şagird yerlik təhsil müəssisələri inşa olunur. Zəngilan rayonunun Ağalı kəndində isə həyata keçirilən "Ağalı kənd" layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəb inşa olunur. Dövlət başçısı "Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılıb.

### 1881-ci ildə Şuşada 6 sinifli real məktəbin əsası qoyuldu

Xatırladaq ki, Şuşa Real Məktəbinin yaranma tarixinə nəzər salsaq görərik ki, XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər meydana gəldi və inkişaf yoluna qədəm qoydu. Məktəblərin təsiri və maarifin inkişafına cəhd baxımından Azərbaycanın Qarabağ bölgəsi, nəinki Azərbaycanda, eləcə də, Cənubi Qafqazda, demək olar ki, ən ilkin yeri tuturdu. Bu ənənə XIX əsrin sonlarında daha da güclənmişdi. XIX əsrin 80-ci illərində Azərbaycanda cəmi bir real məktəb və bir klassik progimnaziya fəaliyyət göstərirdi. Bu isə bir tərəfdən əhalinin orta təhsilə olan ehtiyacını, digər tərəfdən isə sənayə və ticarətin artmaqda olan tələbini qətiyyən ödəmirdi. Bu tələb və ehtiyac Şuşada özünü xüsusilə büruzə verirdi. Burada orta məktəbə olan tələb getgedə artırdı. Şuşa şəhər sakinlərinin təhsilə olan ciddi-cəhdinə və şəhər ictimaiyyətinin arzusuna əsaslanan Gəncə qubernatoru Şuşa şəhərində 6 sinifli realnı məktəb açmağı xahiş edir. Şəhər ictimaiyyəti həmin məktəbi müvafiq bina ilə təmin etməyi və bu ildə 7500 manat pul ilə kömək etməyi öhdəsinə götürür. Beləliklə, 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli real məktəbin əsası qoyuldu. Hazırlıq və üç əsas sinifdən ibarət təşkil edilən bu məktəbə ilk dəfə 159 şagird qəbul edildi ki, onlardan 58 nəfəri azərbaycanlı, 91 nəfəri erməni, 10 nəfəri isə digər millətlərin nümayəndələri idi.

### Azərbaycana görkəmli şəxsiyyətlər yetirən təhsil ocağı

Şuşa məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı və buna görə də Qafqaz maarif nazirinin nümayəndəsi 1890-cı ildə şahzadə Ziaəddövlə Ənişirəvan mirzə Qacarı və antropoloq Şantrı buraya gətirmiş, onlar tədrislə maraqlanmış və aydın olmuşdur ki, məktəbdə üzürlü və üzürsüz dərs buraxanların faizi 7,64-dür. Ümumiyyətlə, bu faiz xalqın elmə-maarifə həvəsinin əvvəlki illərə nisbətən artdığını göstərirdi. Xalq dinin qadağan qanununa əhəmiyyət vermədən, başqa xalqların dillərini də öyrənir. Həmin dində danışmağa və oxumağa cəhd göstərirdilər. 1890-cı ildə Tiflis məktəblərində alman dili məcburi dil kimi öyrədilirdisə, Şuşa məktəbində bu könüllülük prinsipi ilə aparılırdı. Yeni açılan bu məktəblərdə ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirilirdi. Məktəbin müəllimləri Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Məlikhaqnəzərov və Həşim bəy Vəzirov olmuşdur.

Burada təhsil almış şagirdlər də onlara dərs deyən müəllimləri kimi sonradan məşhur şəxslər kimi tanınıblar. Məktəbin yetirməleri olan Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, İsmayıl bəy Şəfibəyov, Muxtar bəy Muradov, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Qara bəy Əliverdilər, Cabbar bəy Vəlibəyov, Rüstəm bəy Axundov, Xan Şuşinski və başqaları fəaliyyətləri ilə dövrlərinin ən parlaq şəxsiyyətləri kimi yadda qalıblar.

Öz missiyasını uğurla həyata keçirən, xalqın maariflənməsi, elmə yiyələnməsi işində müstəsna xidmətləri olan, Azərbaycan ədəbiyyatına bir sıra məşhur yazıçılar, ədiblər, bəxş edən Realnı Məktəb binası sonralar bir sıra təhsil müəssisələrinin fəaliyyət göstərməsi üçün gözəl məkana çevrilmişdir. Belə ki, Şuşanın qədim tikililərindən sayılan təhsil ocağının binasında 1960-cı ilədək Şuşa Pedaqoji Texnikumu, 1960-cı ildən 1989-cu ilədək Riyaziyyat təmayüllü 2 nömrəli internat məktəbi fəaliyyət göstərmişdir.

1992-ci ildə Şuşa işğal olunduqdan sonra Azərbaycan təhsilinin inkişafına əvəzsiz töhfələr vermiş Şuşa Realnı Məktəb erməni vandallığına məruz qalaraq xarabazara çevirib. 30 ilə yaxın işğal olunmuş torpaqlarımızın həsrətinə son qoyuldu və bu gün işğaldan azad olunan ərazilərimizdə aparıan abadlıq-quruculuq işləri çərçivəsində təhsil müəssisələrimiz də yenidən qurulur. Doğma, əzəli torpaqlarımızda işıqlı gələcəyimiz aydın görünür.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Qızlarımızı evlərimizdən nikahsız çıxarmayaq

*Sadəcə dörd hərf - ailə... İki nəfərin nikahda bir-birinə uzun bir yolçuluqda yolyoldaşı olmağa söz verdikləri an "doğulur" ailə. İlk cümləsi "xoşbəxt olun"la başlayan, lakin qarşıda hələ ömrün düz dörd fəslindən bəhs edəcək kitabın yazılmasını bir imza ilə gerçəkləşdirənlər gətirir bu ailəni dünyaya. Bir-birinə ömür-gün yoldaşı olmaq istəyənlərin bir qələmlə yazdıqları ailə kitabı, ömür kitabı... Dörd fəsilli bu kitabı vərəqləyərkən öncə təbiətlə insanın vəhdəti gəlir gözlər önünə. İnsanmı təbiəti, təbiətmi insanı yaratmış? Bu, təbii ki, hələ bir sirr olaraq qalmaqdadır. Lakin bu iki varlığın oxşarlığıdır insanı düşündürən. Nə qədər bənzərdir təbiətlə insan... Uşaqlıq ilk bahar, gənclik bahar-yay, orta yaş payız, qocalıq qışdır. Hələ insan kimi uzunömürlü ola bilən ailələr də təbiətə, onun dörd fəslinə bənzərdir.*



### Nikah ailə kitabının müqəddiməsidir

Nigah isə ailə adlı kitabın müqəddiməsidir. Müqəddiməsiz kitab qəribə göründüyü kimi, nigahsız ailə də bu qəribəliyin yaşanmaması üçün olmamalıdır. Əlimizə aldığımız bir kitabın nədən bəhs etdiyini onun müqəddiməsindən öyrəniriksə, bəzən zövqümüzə uyğun olmadıqda bir kənara qoyur, başqa bir kitab axtarırıqsa, ailə qurarkən də nigahaqədərki dövr ailə kitabının qısa müqəddiməsini ifadə edir. Oxumaq istəyirsənmi bu kitabı? Bax nikah o müqəddiməni tamamlayır. Ələ alınan kitabın sonadək oxunmasına stimul yaradır.

Nikah əsrlərdən bəri xalqımızın böyük dəyər verdiyi, təntənəli şəkildə qeyd etdiyi mərasim olub. Bunun müəyyən səbəbləri var. O səbəblərdən birincisi xalqımızın möhtəşəm ailə dəyərlərinin olmasıdır. Bu dəyərlər əsrlərin süzgəcindən süzülərək formalaşıb. Formalaşdıqca da müqəddəsləşib. Biz ailəni hər zaman müqəddəs hesab etmişik. Onun qurulmasını həyatımızın bənzərsiz anı bilmişik. Valideynlərimiz əsrlər boyu övladının toyunu görməyi həyatının ən gözəl anı, hadisəsi hesab ediblər. Bütün bu gözəlliklərin açarı isə nigahdır.

İkinci bir tərəfdən isə nigaha daxil olmağı, ailə qurmağı xalqımız vacib bir əməl kimi qəbul edib. Və bu, bütün ailələrdə təlqin olunub. O dərəcəyə çatdırılıb ki, mərhələli şəkildə həyata keçirilən, vaxtı çatanda vacib sayılan məsələlərdən biri olub. Xalqın folklorunda, yazılı və şifahi ədəbiyyatında ailə dəyərlərimizi özündə əks etdirən çoxsaylı məqamlar vardır.

Ta qədimdən nigah günü evlərimizdə təntənəli şəkildə qeyd olunub. Bunun üçün analarımız süfrə açıb, üzərinə min bir adda, ləzzətdə şirniyyatlar düzüb, yeməklər hazırlayıb. Bütün yaxınların, rəfiqə və dostların iştirak etdiyi nigah mərasimi süfrə başında, deyib-gülməklə, subaylara da bu günün nəsib olması diləyi ilə xatirələrə köçüb.

Nikahlanmağımızı təsdiq edən sənəd evlərimizin ən yuxarı hissəsində, etibarlı bir yerdə saxlanılıb. Hər zaman qorunub. Bütün bunlar isə yenə də ailəyə verdiyimiz dəyərdən, iki gəncin rəsmi şəkildə bir araya gəlməsinə müqəddəs yanaşmağımızdan qaynaqlanıb. Hər il nigah gününün qeyd olunması, bu münasibətlə evlilərin bir-birinə hədiyyələr bağışlaması bu müqəddəsliyin göstəricisidirsə, ailələrimizdə Gümüş, Qızıl, Brilyant toyların qeyd edilməsi isə bu xalqın nigaha verdiyi dəyərin bariz nümunəsidir.

### Ailə evdir

Yeni qurulan ailə ilk bahara bənzəyir. Torpaq altından yavaş-yavaş pöhrə verən və gələcəyin barı-bərəkəti olacaq taxıl zəmilərinə, fidanları yenicə əkilən, lakin qarşıda dünyaya ətir saçacaq gül plantasiyalarına bənzəyir. Ailənin ilk baharında iki gənc ev qurmağa, qoca nənələrimiz demişkən, yurdyuva sahibi olmağa can atırlar. Ata-analar gənc ailənin qayğıları ilə yaşayır, onların da ev-eşik sahibi olmaları üçün çalışırlar. Bir azdan baharın ən gözəl çağı - min bir rəngli çiçəklərin təbiətə səpildiyi, hər yerə ətrini saçdığı dövrü başlayır ailənin. Dünyaya körpə gəlir. Dünənədək iki gəncin sevgisiylə dolan mənzilə yeni nəfəs qatılır. Ev-eşik, divarlar körpə qoxusu verir. Bu qoxu iki gənci valideyn edir, çiyinlərinə böyük bir məsuliyyət qoyur. Övladlarını alırlar qucaqlarına. Dünyanın ən gözəl sevgisi olan övlad sevgisi nə qucağa sığır, nə mənzillərin otaqlarına... Bu sevgi bir ovuc boyda olan, lakin nələr-nələr sığdıra bildiyimiz ürəyimizə sığır. Ata-ana olur insan. Elə bu zaman da ata-ana qədrini bilməyə başlayırıq. Yuxusuz gecələr, qayğılı gündüzlər anamızı andırır bizə. "Bir ailəm var, məsuliyyəti tam mənim üzərimdədir" hissi atamızı xatırladır bizə. Sanki baba-nənələrimizin "ata-ana olmayan bilməz valideyn qədrini" deyimini də məhz bu zaman dərk edirik...

Oğul, qız - fərqi yoxdur, doldurur evimizi sevinclə, xoşbəxtliklə... Qayğılı günlər başlayır ailədə. Nə qədər gözəl günlərdir bu qayğılı günlər. İnsanın həyatını maraqlı edən, ömrünü mənalandıran günlərdir övlad qayğısı çəkmək. Onun böyüməsini izləmək - balam bu gün bir addım atdı, bir kəlmə söz söylədi, bir şeir dedi, birinci sinfə getdi, əla qiymət aldı, idmanda uğur qazandı, olimpiada qalibi oldu, universitetə daxil oldu, əsgər getdi, ailə qurdu kimi sevinclərini yaşamaqla bərabər, xəstələnəndə qayğısını çəkmək, "niyə yemədi, niyə yaxşı oxumadı, niyə yoldaşlarından geri qaldı", - deyə narahatlıq keçirmək də gözəldir. Axı bu, bir ailədə yaşananlardır. Yaxşılar da, yaxşı olmayanlar da bizimdir. Yaxşını lap yaxşı, yaxşı olmayanı yaxşı səviyyəsinə gətirməkdir valideynlik vəzifəsi, məsuliyyəti. Ailəni də ailə edən bu hisslərdir. Ailə evdir, qayğılarla, sevgilərlə, məhəbbətlə dolu bir ev

### Nikahsız ev xarabadır

Nikahda məsumiyyət, paklıq, həm də bərəkət var. Nigah öz rəsmiliyi ilə paklıq gətirir bu bağlantıya. Nikah həm də bərəkətdir. Bərəkəti verən Ulu Yaradan olduğu üçün onun təlqin etdiyi nigaha daxil olanların da evlərinə bərəkət yağır göydən.

"Qurani_Kərim"də kəbinsiz, yəni nigahsız bir yerdə yaşamaq günah hesab edilir. Həm də cəzası ağır olan günah. Müasir dövrümüzdə kəbin kəsdirməklə bir yerdə yaşamağa başlayanlar belə hesab edirlər ki, bununla iş bitmiş hesab olunur, yəni onlar ta heç bir günahın sahibi deyillər. Bu cür də yaşamaq mümkündür, çünki müqəddəs kitabda yazılanlara əməl edirlər. Lakin bu, belə deyil. Elə "Qurani-Kərim" də bu sözlərlə nigahı nəzərdə tutur. Əsrlər öncə bu iş yalnız dini formada həya keçirilirdisə, lakin sonralar rəsmi şəkildə də olması vacib hesab edilibsə, biz onların hər ikisinə riayət etməklə düzgün nigaha girə bilərik. Birtərəfli-yəni kəbinlə qurulan ailə mənim fikrimcə ailə deyil. Onların yaşadığı ev də abad ola bilməz, bir xarabalığa bənzəyir. Çünki qanunlar xaricində qurulur o ailələr.

Valideynlərin xeyir-duası olmayan yerdə ailədən söhbət gedə bilməz. Kimin harada kiminlə istəyirsə bir araya gəlib yaşaması bizim ailə dəyərlərinə, milli kaloritimizə uyğun deyil. Belə ailələrdə nə din, nə də bərəkət ola bilər. Dəfələrlə müşahidə etdiyimiz hadisələr yığnağıdır nigahsız evlər. Problemlərin, bitib-tükənməyən, həlli olmayan məsələlərin ünvanıdır bu evlər. Sadəcə iki insanın hissləri daxilində, lakin düşüncəsi xaricində bir araya gəlməsidir. Buna nə ailə demək olar, nə də onların yaşadıqları yerə ev. Çünki ailə, ev məfhumları özündə yalnız bir tərəfi qədim dövrlərə söykənən dəyərləri, qayda-qanunları ehtiva edir.

### Ah, Avropa, Avropa

Bizim bədbəxtliyimiz o zaman başladı ki, Avropaya evlərimizin qapısını açdıq. Bu qapılardan Avropaya məxsus olanlar girdikcə bizim olanları unutdurdu. Danışığımız, saçımız, geyimimiz dəyişdi. Dilimizə yeni sözlər əlavə etdik. Saçımıza yeni rənglər qatdıq. Geyimlərimiz dizləri çırıq- çırıq şalvarlara, ətəklərimiz dizdən iki qarış yuxarı, qolları ikicə qatmadan ibarət olan geyimlərə çevrildi. Parkda, nəqliyyatda ayaqlarımızı bir-birinin üstünə aşırdıq, utanmadıq, müasir hesab etdik, hansı ki, vaxtilə evlərimizdə böyüklərimizin yanında oturmaq belə qəbahət idi. Küçədə-bacada ucadan danışıb-gülməyə başladıq, nə olsun ki, müasir dünyadır dedik. Hansı ki, bizə verilən tərbiyədə bundan qəbahətlisi yox idi. Bir-birimizlə əl-qol zarafatlarına başladıq, kənardan baxanlara məhəl qoymadan. Axşam evə gec gəldik, səhər tez çıxdıq, hansı ki, illər öncənin ailə sistemində bunlar qətiyyən yolverilməz idi.

Beləliklə, ailə qurmağa da özümüz qərar verdik. Əşi, Avropada heç rəsmi nigaha girənlər yoxdur, vətəndaş nigahı ilə yaşayır camaat. Bizdə niyə olmasın ki, dedik. Unutduq keçmişimizi, ailə dəyərlərimizi. Bəli, bu deyilənlərin mərkəzində gənclik dayanır. Lakin gəlin biz orta nəslin nümayəndələri heç də özümüzü kənara çəkməyək. Çünki bütün bunların səbəbkarları elə bizik, övladlarımız deyil. Biz bacarmadıq. Qapılarımızı möhkəm kilidləyib Avropanı içəriyə biz buraxmalı deyildik. Övladlarımızın hər hərəkətini diqqətdə saxlamalı idik. Danışığına, geyiminə, özünü küçədə aparmasına biz nəzarətçi olmalı idik. Bizim səhvlərimizdir bunlar. Boşluğu biz yaratdıq. Bundan isə istifadə edənlər qazandılar.

İndi övladlarımız avropasayağı "ailə" qururlar. Acısını kim yaşayır, biz. Çünki nigahsız ailə ilk gündən problemli ailədir. Biz buna hazır olmalıyıq. Hazır olmalıyıq ki, 1-2 ilə kimi başımıza gələnlərə sinə gərək.

### Qızlarımızı evlərimizdən nikahsız çıxarmayaq

Gəlin statistikaya nəzər salaq. . Nikahsız qadınların dünyaya gətirdiyi uşaqların sayı 2019-cu ildə 21 453, 2018-ci ildə 20 716, 2017-ci ildə 22 796, 2016-cı ildə 26 288, 2015-ci ildə 24 038, 2014-cü ildə 25 486 olub. 2014-cü ildə nikahsız qadınlar tərəfindən doğulan uşaqların 9772 nəfəri şəhər, 15 714 nəfəri kənd, 2015-ci ildə 9 411 nəfəri şəhər, 14 627 nəfəri kənd, 2016-cı ildə 9 592 nəfəri şəhər, 16 696 nəfəri kənd, 2017-ci ildə 8167 nəfəri şəhər, 14 629 nəfəri kənd yerlərinin payına düşüb. 2018-ci ildə belə qadınlar şəhər yerlərində 7 509, kənd yerlərində 13 207 uşaq, 2019-cu ildə şəhər yerlərində 7790, kənd yerlərində 13 663, 2020-ci ildə şəhər yerlərində 6667 uşaq, kənd yerlərində 11 047 uşaq dünyaya gətirib.

Bu rəqəmlər adamın canına sanki bir üşütmə salır. Nigahsız yaşayanlar haqqında çox eşidirik, onların dünyaya gətirdikləri uşaqların necə çətinliklə üz-üzə qaldığını bilirik, həmin qadınların evlərdən qovulmasının, heç bir mülkdə hüququ olmaması barədə dəfələrlə məlumatımız olur. Lakin bu rəqəmləri belə bir arada görmək daha dəhşətlidir. Müqayisə edərkən bir nüans da diqqətimdən kənarda qalmadı. Nikahdankənar doğulan uşaqalrın sayı yuxarıda göstərilən illərin hər birində kənd yerlərində daha artıq olmuşdur. Bu isə daha böyük facİə deməkdir. Çünki ailə dəyərlərimiz, adət-ənənələrimiz həmişə şəhərlərdən çox, kənd yerlərində qorunub saxlanılıb. Lakin bu rəqəmlər Avropanın şəhərlərimizdən sürətlə ötüb kəndlərimizdə dayanmasını sübut edir.

2020-ci ildə ölkədə rəsmi qeydə alınmamış nikahda olan qadınlar 17714 uşaq dünyaya gətiriblər. Bu həm də 17714 uşaqla yanaşı, bir o qədər qadın deməkdir. Dünyaya gətirdikləri uşaqlarla birlikdə həyatın çətinliklər girdabına atılan qadınlar. Onların sabahı necə olacaq? Övladlarına atalarının soyadını verə biləcəklərmi? Sevib inandıqları insanlarla başladıqları yolu sona qədər addımlaya biləcəklərmi? Sadah bir problem yarananda həyat yoldaşları onların arxasında olacaqmı? Əgər ayrılmalı olsalar, bir ev tapıb övladları ilə orada yaşaya biləcəklərmi? Axı qanunvericilik mülklə bağlı nigahlı evliliklərlə müqayisədə nigahsız evliliklər üçün ayrı söz deyir.

Bu məsələ ilə bağlı həyacan təbili onsuz da illərdir, çalınır. Lakin düşünürəm ki, indi bu təbili ara vermədən, yorulmadan, gecə-gündüz çalmalıyıq. Çünki statistik rəqəmlər çox qorxuncdur. Hələ fikir versək son illərin statistikasında nigahsız bir araya gələnlərin sayı əvvəlki illərlə müqayisədə azalıb. Bu da ölkəmizdə nigah yaşının 18 olaraq müəyyənləşməsidir. Lakin bunun da qarşısında 17 mindən artıq nigahsız uşağın doğulması faciəvi rəqəmdir. Bu səbəbdən də oyanmalıyıq. Gözümüzü yumub görə bilmədiyimiz, sadəcə kəbinlə ailə quran övladlarımızın gələcəyi naminə oyanmalıyıq. Ətrafımızda bu cür evliliyə yol verənləri tənbeh etməliyik. İmkanınız daxilində belə evlilikdən insanları çəkindirməliyik. Əlimizdən gələni etməliyik. Evlərimizdən isə qızlarımızın heç bir halda nigahsız çıxmasına icazə verməməliyik.

**Mətanət MƏMMƏDOVA**

# “Azərbaycanlı fəhlə və ermənilərdən axşamlar bir-birinə qonaq gedənlər də var...”






***Əvvəlki yazını aşağıdakı linkdən və ya ”Səs” qəzetinin 19 may tarixli buraxılışından izləyə bilərsiniz:***

**https://sia.az/az/news/politics/955259.html**

”Kavkazskiy uzel” saytı ilə əməkdaşlıq edən erməni jurnalist-bloger David Simonyan Laçın-Xankəndi yolunun üzərində çəkilən yeni alternativ yol haqqında reportaj hazırlayıb. Simonyan öz çəkilişində qeyd edib ki, Azərbaycanın rəsmi qurumlarının da təsdiqlədiyi kimi, 10 noyabr 2020-ci il razılaşmasına əsasən növbəti 3 il ərzində tərəflərin razılığı əsasında Yuxarı Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizinə alternativ olaraq yeni hərəkət marşrutunun inşasına artıq başlanılıb. Alternativ yol Ermənistanın Qərbi Zəngəzurdakı Sünik rayonunun Gorunzur kəndindən başlayacaq, Laçın rayonunun Zabux kəndi yaxınlığındakı Qayğı qəsəbəsindən, Şuşa rayonunun Aşağı və Yuxarı Qaladərəsi kəndlərindən keçərək dağların arasından Xankəndinə çatacaq...



**SİA həmin reportajın ardını təqdim edir:**

Əvvəlcədən qeyd edək ki, Simonyanın reportajındakı ”artsax” ifadəsi Qarabağ, ”Mets Şen” ”Böyük Qaladərəsi”, ”Hin Şen” isə ”Kiçik Qaladərəsi” toponimi ilə əvəzlənib.

Blogerin yazdığına görə, Kiçik Qaladərəsi kəndinin girişi ”qardaşlıq məzarlığın”dan, Rusiya blokpostunun yanından başlayır, yan tərəfdə isə bulaq var. O, maşınlarını saxladıqları zaman azərbaycanlıların olduğu digər avtomobilin yaxınlaşdığını qeyd edib və bildirib ki, onlar bulaqdan şüşə qablara su götürürdülər.

Onlara yaxınlaşıb salam verdim və soruşdum:

**-Rus dilində danışan varmı?**

Azərbaycanlılardan biri könülsüz cavab salamı verdi. Onlardan soruşdum:

**-Ermənilərlə probleminiz varmı?**

Dedi:

**Yox, salamlaşırıq - vəssəlam.**

Simonyan davam edir: ”Yeni yolun xəritəsini göstərməsini xahiş etdim, cavab verdi ki, onda yoxdur...Bir Rusiya əsgəri yaxınlaşdı və bloger olduğumu biləndən sonra onu videoya çəkməməyimi xahiş etdi... Sonra kəndə düşdük. Həmin vaxt işıq, qaz yox idi. Elektrik direyin üzərində işləyirdi, işıq xəttini birləşdirirdi. Amma qazla bağlı nə baş verdiyini və niyə olmadığını başa düşmədik. Yaxınlıqda ekskavatorlar guruldayırdı. Onlar yalnız kəndin yanında deyil, yaxınlıqda da işlər aparır. Bundan sonra yolların hissələri birləşdiriləcək...”

## ”...Bununla belə, axşamlar bir-birinə qonaq gedənlər də var”

Erməni bloger daha sonra əlavə edir: ”Məni bulaqdan aydın şəkildə görünən ermənicə yazısı olan və 1941-1945-ci illərin yadda qalan tarixi olan daş maraqlandırırdı. Məlum oldu ki, yolu genişləndirəndə yenidən hara qoyacaqlarına qərar verənə qədər onu götürüb bura köçürüblər...

Kəndlilərdən azərbaycanlılarla münasibətlərinin necə olduqlarını soruşdum. Cavabında indiyə qədər hər şeyin qaydasında olduğunu deyirlər, amma bildirirlər ki, əksəriyyəti onlarla aqressiv davranır.

Hamısı yox, çoxu... Bununla belə, axşamlar bir-birinə qonaq gedənlər də var. Əsas odur ki, heç bir qarşılıqlı hücum hadisəsi baş verməyib...

Bəs yeni yol, onun kəndlilərə xeyri varmı? Deyirlər ki, müharibədən sonra onsuz da azalmış otlaqların 30-40 faizi yolun altına düşüb - azərbaycanlı inşaatçılar- kimindir, yaxud icarədədir- soruşmurlar. Amma sakinlər yaxınlıqdakı yeni yolun da faydalı olacağı ilə razılaşırlar... Arada bir-birə etibarsızlıq var və bu başa düşüləndir. Sabah nə olacağını heç kim bilmir, yalnız hər şeyin qaydasında olduğuna inandıran Rusiya sülhməramlısı nikbinlik yayırdı: ”Amma başqa cür ola bilməz”.

## “Geri qayıdanda azərbaycanlıların ekskavatorlar kolonuna rast gəldik, iş günü isə artıq bitmişdi, bir-birinə yol verərək dar dağ yolunda sürürdülər”

Erməni blogeri Simonyan yazır: ”Geri qayıdanda azərbaycanlıların ekskavator kolonuna rast gəldik, iş günü isə artıq bitmişd, bir-birinə yol verərərək dar dağ yolunda sürürdülər. Böyük Qaladərəsi kəndində Suren dayı ilə söhbət etdim. Onun tezliklə 90 yaşı tamam olacaq. Çox maraqlı şeylər danışdı... Çoxuşaqlı bir ailə üçün ev tikildiyini gördüm...”

Beləliklə, erməni blogerin reportajından nəticə çıxarmaq olar ki, artıq Qarabağda azərbaycanlılar və ermənilər arasında qeyri-iradi ünsiyyətlər yaranmaqdadır. Hətta belə desəl, xaricdən, yən Rusiya və ya Qərbdən müxtəlif güclər müdaxilə etməsələr bəlkə də yaxın gələcəkdə iki millətin nümayəndələri yanaşı yaşamağın yolunu taparlar. Daha dəqiq desək, Azərbaycan ərazisində yaşayan ermənilər ya sakitcə vətəndaşlığı, qanunlarımızı qəbul etməklə bütün revanşist, irqçi duyğuları unudub Qarabağda dinc yaşamaqda davam etməlidirlər, ya da səs-küy salmadan Ermənistana köçməlidirlər. Əks halda bu qarşıdurma sonsuza qədər davam edə bilər. Azərbaycan Ermənistana son xəbərdarlıqlarını edib və İrəvan üzərinə düşdüyü bütün öhdəliklərinə əməl etməlidirlər.

Laçın dəhlizinə ermənilərin məskunlaşdığı kəndlərdən keçən alternativ yolu tikən azərbaycanlı yolçəkənlər - mühəndis və fəhlələr isə əsl qəhrəmanlıq göstərirlər. Eyni zamanda, bu yerlərdə Azərbaycanın şanlı Ordusu da diqqətini daim ən yüksək səviyyədə saxlayır və hər an baş verə biləcək təxribatı anındaca məhv etmək gücündədir.

***Rövşən RƏSULOV***





# "Rusiya Ermənistanla Azərbaycan arasında birbaşa ünsiyyətin qurulmasını istəmir"



## Politoloq Anar Əliyevin "Səs" qəzetinə müsahibəsi

**- Anar müəllim, Brüssel görüşündə əldə olunan razılaşmaya əsasən sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı Azərbaycan işçi qrupunu yaratsa da, Ermənistan hələ ki, işçi qrupunun yaradılmasını yubadır. Bunu Ermənistanın üzərinə götürdüyü öhdəlikdən imtinası kimi qiymətləndirmək olar?**

- 6 aprel Brüssel görüşü zamanı ən mühüm nəticələrdən biri Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası işi ilə məşğul olacaq işçi qrupun qısa müddət ərzində yaradılması və aprel ayının sonlarına kimi ilk iclasın keçirilməsi ilə bağlı razılaşma idi. Təəssüflər olsun ki, ay yarım müddət ərzində Ermənistan tərəfindən bu istiqamətdə ciddi addım atılmayıb. Azərbaycan tərəfi dəfələrlə bəyan etdiyi kimi, həm işçi qrupun tərkibi, həm də keçiriləcək görüşlə bağlı razılığı versə də, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsə də, Ermənistan tərəfindən bu istiqamətdə addımlar atılmadı. Tam əksinə Rusiyanın ciddi təzyiqləri ilə Ermənistan tərəfi Azərbaycanla birbaşa ikitərəfli əlaqələrin qurulmasından mümkün qədər yayınmağa çalışır.

**- Burada Rusiyanın Ermənistana təsirinin mühüm rol oynadığını demək olarmı?**

- Bəli, burada vacib amil Ermənistanın hazırkı hakimiyyətinin Ermənistan-Azərbaycan arasında münasibətlərinin tənzimlənməsi ilə bağlı dəqiq planlarının mövcud olmamasından daha çox Rusiyanın müəyyən dairələrinin ciddi təzyiqi ilə üzləşməsi nəticəsində Azərbaycan və Ermənistan arasında birbaşa əlaqələrin qurulmasında mümkün qədər ehtiyatlı davranmağının nəticəsidir. Çünki 6 aprel Brüssel görüşündən sonra Paşinyan Moskvaya dəvət edildi və həmin görüş zamanı Paşinyana ciddi şəkildə Azərbaycanla birbaşa əlaqələrdən yayınıb, yalnız rəsmi Kremlin iştirakçılığı ilə münasibətlərin tənzimlənməsi formatının daha çox diqqət ayırmasını təkidlə tələb etdilər. Eyni zamanda, Paşinyan və onun komandasının 6 aprel görüşündən sonra bir neçə dəfə Azərbaycanın müxtəlif səviyyəli rəsmi şəxsləri ilə görüşlərinin keçirilməsi məsələn, xarici işlər nazirləri arasında telefon danışıqlarının baş tutması eyni zamanda, Ermənistan Təhlükəsizlik Şurasının katibi ilə Azərbaycan Prezidentinin köməkçisi arasında görüşlərin keçirilməsi Ermənistan tərəfdən Azərbaycanla birbaşa ünsiyyətin qurulmasında maraqlı olduqlarını nümayiş etdirirdi. Lakin Rusiyanın ciddi təzyiqləri xüsusilə də, 25 apreldən başlayaraq Ermənistan daxilində revanşist qüvvələrin hərəkətə gətirilməsi və xalqın hakimiyyətə qarşı müqavimətinin formalaşdırılması istiqamətində addımların atılması, Ermənistan hakimiyyətinin daha ehtiyatlı olmağa və Rusiyanın iştirak etmədiyi birbaşa danışıqlardan çəkinməyə məcbur etdi.

**- Demək olarmı Ermənistan həmişə olduğu kimi, bu dəfə də Rusiyanın əlaltısı rolunda olduğunu nümayiş etdirir?**

- Bu proseslərin xüsusilə də, Ermənistanla Azərbaycan arasında Brüssel formatının əsas uğuru kimi qiymətləndirilən birbaşa danışıqların zəiflədilməsi və işçi qrupunun yaranması ilə bağlı Ermənistan tərəfindən ciddi addımlar atılmaması yalnız Rusiyanın maraqlarına xidmət edir. Son günlər ərzində Rusiyanın Ermənistana qarşı həyata keçirdiyi ciddi təzyiqlərin nəticəsi kimi qiymətləndirilə bilər. Bundan sonra da həm Ermənistan-Azərbaycan sərhədində müxtəlif istiqamətli təxribatlar, həm də Ermənistanın bu günə qədər üzərinə götürdüyü öhdəliklər yerinə yetirilməsi ilə bağlı xüsusilə də, ikitərəfli nəqliyyat-komissiya xətlərinin açılması ilə bağlı məsələlərdə ciddi problemlər özünü göstərəcəkdir. Unutmayaq ki, bir neçə gün bundan öncə Rusiya xarici işlər nazirinin sözçüsü Mariya Zaxarova mətbuata açıqlamasında da maraqlı bir fikir səsləndirdi və açıq şəkildə bəyan olundu ki, Rusiya Ermənistan-Azərbaycan arasında, xüsusilə, sərhədlərin delimitasiyası ilə məşğul olacaq işçi qrupunun yaradılmasında maraqlıdır. Lakin burada vacib və fərqli bir məqam bu prosesdə Rusiya tərəfinin iştirakının vacibliyinin zəruriliyinin qeyd olunması idi. Mariya Zaxarova açıq mətnlə bildirdi ki, bu komissiyanın yaradılmasında Rusiya maraqlı olduğu kimi, tərəflər arasında münasibətlərin tənzimlənməsində Rusiya komissiyanın içində iştirak etməklə məsləhətçi, məşvərətçi hüquqlarına sahib olmalıdır. Bu səlahiyyətlərindən istifadə edərək tərəflər arasında münasibətlərin tənzimlənməsində yardım göstərməyə hazırdır. Bütün bunlar onu göstərir ki, bəli, Rusiya Ermənistanla Azərbaycan arasında birbaşa ünsiyyətin qurulmasına qətiyyən imkan vermək istəmir. İndiki situasiyada xüsusilə də Rusiya Ukrayna müharibəsi fonunda demək olar ki, dünyanın əksər dövlətləri tərəfindən blokadaya alınan, iqtisadi sanksiyalar tətbiq edilən Rusiya bir çox digər bölgələrdə də Qərbin mümkün qədər Rusiyanı sıxışdırıb çıxarmağa çalışdığı indiki dövrdə Cənubi Qafqazdakı proseslərdən kənarda qalmaq istəmir. Mümkün qədər Cənubi Qafqazdakı proseslərdən tənzimlənməsindəki özünün mühüm rolunu daha da genişləndirmək və tərəflərin bu roldan Rusiyadan asılı olduğunu daim nümayiş etdirməyə çalışır. Hesab edirəm ki, bəli, indiki şəraitdə Ermənistanla Azərbaycan arasında gərginlik müəyyən dövr üçün davam edəcəkdir. Təbii ki, bölgəmizdə böyük və davamlı sülhün əldə olunması xidmət edəcək Ermənistanla Azərbaycan arasında müqavilələrin imzalanmasında müəyyən dövr üçün gecikmələr baş verə bilər.

***Gülyana***

# Mərəz

***Allah göstərməsin, mərəzi. Kənar olsun bizlərdən. İnsanda nə can qoyur qala, nə də pul. Hələ gəl ki, elə dərd tapasan ki, dərdinə dərman tapılmaya, Allah bunu hər kəsdən uzaq eləsin, Amin!***



## FELYETON

Ay qardaş, mərəz deyəndə ki, dərd bir olar, iki olar, hansından danışasan ey. Durduğun yerdəcə gəlib səni tapır. Sən demirsən ki, gəl, o gəlib səni tapır, deyir gəl, canını da alacam, pulunu da. Əşi, gəl mərəzi qoyaq bir kənara ey, qəm qəm gətirər, dəm dəm gətirər. Niyə mərəzdən danışırıq axı?

Bu gün dəbdən danışmaq istəyirdim, mərəz gəldi haradan düşdü ortaya, bilmirəm. Keçək söhbətə. Bütün dövrlərdə dəblə ayaqlaşmaq çox yaxşıdır. Niyə? Ona görə ki, insanlar bunu lazım bilirlər. Dəblə ayaqlaşmaq insanın müasirliyinin, dünyagörüşünün inkişafını nümayiş etdirir. İntellektual səviyyəsinin yerində olduğunu təsdiq edir. Dəblə ayaqlaşmağa bütün yaş qruplarından olan insanlar can atırlar. Lakin bütün dövrlərdə buna daha çox gənclər cəhd edirlər. Niyə də etməsinlər ki?.. Dəblə geyinməyin, saçları dəbə uyğunlaşdırmağın nəyi pisdir ki?..

Məsələn, xatırlayanlar varsa, lap əvvəllər qadınlar da, kişilər də milli geyim geyinirdilər. İndi muzeylərdə, filmlərdə görə bilirik həmin geyimləri. Hələ bir məəttəl qalanlar da var ki, İlahi, doğrudan insanlar bu cür geyinirmişlər. Niyə bu qədər məəttəl qalırlar, deyə bilmərəm, amma qalırlar. Bəziləri isə hələ də düşünür ki, yox əşi, elə geyim olmayıb, filmlərə çəkilmək üçün o cür geyinib aktyorlar. Nə deyim, vallah. Hər kəsin öz fikri var. Yəqin bu cür düşünənlər nənəbabalarında da o geyimləri görməyiblər. Bu da mümkündür. Çünki müasir dövrün insanlarıdırlar...

Sonra vaxt ötdü, zaman dəyişdi. Geyimlər də dəyişdi. Bunu əsasən qadınların geyimlərində daha çox gördük. İnsanlar dayanmadan-durmadan dəblə ayaqlaşmağa başladılar. Ötən əsrlərin düz ayağın ucunadək ətəkləri qısa ətəklərlə əvəzləşdi. Bir az sonra o qısa ətəklərin də sayı azaldı, qadınlar kişi paltarı, yəni şalvar geyinməyə başladılar. Bu, haradasa çoxlarımız tərəfindən yaxşı qəbul olundu. Çünki ən azından qızgəlinlərimizin ayaqları örtüldü. Dedik əşi, o qısa ətəklərdənsə, cəhənnəm, bu şalvarlar yaxşıdır. Hə, onu da deyim ki, qadınlar ki, kişi geyimlərinə keçdilər, bəs kişilər nə etdilər? Nə edəcəklər, qadınlardan seçilmək üçün şalvarlarını daraltdılar, köynəklərini əyinlərinə yapışan dərəcəyə çatdırdılar. İndi desəm, inanmayacaqsınız, qonşuda yeniyetmə oğlan vardı, şalvarını əynindən çıxaranda anasını köməyə çağırırdı. Oğlan uzanırdı yerə, ana da şalvarın ayağından dartıb bir zülmlə çıxarırdı. Sonra bunun asan yolunu tapdılar. Oğlan hər iki ayağına sellofan torba geyinirdi ki, şalvarı çıxaranda sürüşüb asanlıqla çıxsın. Nəyi pisdir ki, bunun? Dəblə geyin, çıx, kim bilir ki, evdə hansı çətinliklə qarşılaşırsan. Ta ki, küçədə dəbli görün.

Hə, harada qaldıq? Kişilərin köynəklərində. Köynəklərinin bədənini, qollarını o qədər daraltdılar ki, bu darlıq kilo almalarına mane oldu. Dar paltar kilo almağa qoymur axı. İndi hara baxırsan cansız-çəlimsiz yeniyetmə, gənc görürsən. Nəyi pisdir ki, bunun? Gərək gedib hələ bir vaxt sərf ebib idmanla da məşğul olasan ki, bədənin formada qala? Geyindikləri paltar onları istədikləri formada saxlayır da.

Saçlar da ki, bütün bu dəbli geyimləri gözəl şəkildə tamamlayır. İndi arxadan baxanda bilmirsən qarşında gedən qızdı, yoxsa oğlan. Dəb elə gətirib ki, qızlı-oğlanlı hamı saçını uzun saxlayır, bəzən boyayıb çəhrayı, bənövşəyi rəng edənlər də, saçlarının aralarına istənilən rəng tonları verənlər də var. Qara saçlar ta keçmişdə qalıb. Elə qara saç saxlayanlar da keçmişin qalıqları hesab olunurlar. Nəyi pisdir ki, dəb budur da.

Kişilərin dəbinə başımız qarışdı, qadınlar yaddan çıxdı. Bir qədər də onlardan danışaq. Çünki dəbə qadınlar kişilərdən daha çox fikir verirlər. Hə, oğlanlar şalvarlarını daraldandan sonra qızlar nə etdilər. Onlar şalvarlarını daha da daraltdılar. Həm də yeni şalvar dəbindən istifadə etməyə başladılar-kəsikli şalvarlar. Buddan dizə, dizdən topuğa qədər ara-ara böyük kəsikli şalvarların altından bədənin görünməsi günün əsas dəbidir. Yay-qış insanın bədəni hava alır bu kəsiklərdən. Nəyi pisdir ki, bunun? Az qalırdı ki, yadımdan çıxsın, necə ki, qadınlar kişilərin dar şalvarlarının daha darını geyinməyə başladılar, kişilər də qadınların kəsikli şalvarları kimisini geyindilər. Niyə də geyinməsinlər ki?.. Dəb nə baxır kişiyə, qadına?

Hələ qadın köynəklərini demirəm. Dəb elə gətirib ki, artıq burada istehsalçı da qazanır, alıcı da. Niyə? Mən deyim, siz də mənim dediklərimi təsdiqləyərsiniz elə bilirəm ki. Məsələn, qadın köynəkləri indi çox qısa şəkildə istehsal olunur. Geyinirsən, şalvarla, ətəklə köynəklərin arasında ən azından bir qarış məsafə qalır. Fikir verin ki, bu köynəklərdə nə qədər parçaya qənaət olunur. İndiyədək şalvarın içərisinə saldığımız köynəklərin birindən indi iki köynək istehsal olunur. İstehsalçı belə qazanır. Bu köynəklərə də tələbat var ey. Yerindən qalxan valideyninə ondan aldırır. Niyə də tələbat olmasın ki?..

Belə köynəklərlə həm də alıcı qazanır, nə üçün? Biri var bunun ikisi qədər paltarı üzərində gəzdirəsən, yuyasan, ütüləyəsən, biri də var ki, əl boyda köynəyi. Bütün bunlar bir kənara, qazancın əsası isə ondadır ki, bunu alanlar və geyinənlər dəbləri ilə seçilirlər. Hələ bu göynəklərin üstünə uzun rəngli saçları tökəndə daha füsünkar görünür.

Nə isə, deyəsən uzun danışdım. Yekunlaşdırım. İndi oxuyub deyəcəksiniz, heç dəxli var, mərəzlə başlayıb, dəblə qurtarırsınız söhbətinizi. Aydın deyil, niyə? Deyilsə, yenə də bir səthi mərəz məsələsinə qayıdıram. Və yenə də deyirəm, dərd bir deyil, Allah bütün mərəzlərindən saxlasın bu camaatı, yazıqdırlar. Siz də bu söhbəti oxuyub, Amin, deyin ki, Allah tutulduğumuz bütün mərəzlərin şəfasını versin, yenilərini bizdən kənar etsin...

***Mətanət MƏMMƏDOVA***

# Xankəndidə fikir haçalığı: separatçılar hansı nəticə çıxaracaqlarını bilmirlər



## Yeganə yol qısa zamanda Azərbaycanın yuruduksiyası altına keçmək, yaxud ərazilərimizi tərk etməkdir!

2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatının Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanmasından və bu üsulla Ermənistanın Azərbaycan qarşısında kapitulyasiyaya uğramasını rəsmi şəkildə təsdiq edən sənədin üzərindən 1 il 6 aydan çox müddət keçir. Lakin görünən budur ki, Azərbaycandan fərqli olaraq Ermənistan istər bu bəyanatda, istərsə də sonrakı görüşlərdə əldə edilmiş razılaşmalar çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək fikrində deyil. Günü-gündən isə həmin reallıq özünü daha çox qabarıq mənzərədə əks etdirməkdədir.

### Hazırkı dövrə qədər müxtəlif platformalarda keçirilən görüşlər və erməni tərəfinin verdiyi vədlər məsuliyyətsizliklərlə müşahidə olunmaqdadır

Məhz 44 günlük ikinci Qarabağ müharibəsində Azərbaycan dövlətinin və xalqının erməni işğalçıları üzərində qazandığı zəfərindən sonrakı ötən müddətdə məhz erməni tərəfinin davranışları regionda birdəfəlik sülhün bərqərar olmasına ciddi manеələr törətməyə davam edir. Xüsusilə, Xankəndidə erməni ordusunun qalıqları, eləcə də silahlı separatçılar qalmaqdadırlar və bütün bunlar söz yox ki, Azərbaycan xalqının və dövlətinin səbrini tükəndirir. Hazırkı dövrə qədər müxtəlif platformalarda keçirilən görüşlər və erməni tərəfinin verdiyi vədlər isə sadəcə məsuliyyətsizliklərlə müşahidə olunmaqdadır.

Bu arada, Xankəndidə qalan separatçı törtöküntüləri arasında da fikir haçalıqları yaşanmaqdadır. Belə ki, onların bir hissəsi Qarabağ ərazisini tərk etməyə çağırır, digərləri isə görünür 44 günlük müharibə zamanı burunlarının necə ovulduğunu unudaraq hələ də güclü Azərbaycana tərəf "buynuz" atmağa cəhdlər göstərirlər.

### Separatçı "deputat" Metakse Akopyan: "Nəyə isə etməyə cəhd göstərmək belə mənasızdır, bizim hər birimiz Ermənistana geri dönməli olacağıq"

Misal üçün, qondarma qurumun saxta parlamentindəki "ədalət" adlı "fraksiyada" təmsil olunan "deputat" Metakse Akopyan Ermənistan KİV-lərinə müsahibəsində İrəvanın Qarabağ rəsmi olaraq Azərbaycanın tərkib hissəsi kimi tanıdığını bildirib. Erməni siyasətçisinin sözlərinə görə, erməni tərəfi Azərbaycan tərəfindən irəli sürülən beş bəndlik təklifə cavab verdikdən sonra (burada ermənilərin saxtakarlığa hesablanmış 6 bəndləri nəzərdə tutulur-R.R.) Xankəndidən səsli-küylü məlumatları gözləmək olar. Onun sözlərinə görə, oradakı "nazirlər", "deputatlar" təcili surətdə Xankəndini boşaltmağa başlayacaqlar.

Onun digər sözlərinə görə, erməni xalqı üçün görünən budur ki, İrəvan Azərbaycanın 5 təklifi ilə bağlı ictimaiyyətə özünün 6 bəndlik "absurd yanaşmasını" təqdim edib. "İndi nəyə isə etməyə cəhd göstərmək belə mənasızdır. Bu bəndlərdə "dqr"in xeyrinə olacaq hər hansı səmərə ilə bağlı heç nə görmədim. Ümumiyyətlə, bizə eyham vurdular ki, bütün bunlar (yəni bəndlər-R.R.) olmayacaq. İrəvan rəsmi şəkildə Qarabağ Azərbaycanın tərkib hissəsi kimi tanıyıb. Bu isə o deməkdir ki, bizim hər birimiz Ermənistana geri dönməli olacağıq", deyə separatçı "deputat" Metakse Akopyan bildirib.

### David Babayanın sərsəm düşüncəsinə görə, Ermənistanla Azərbaycan arasındakı münasibətlər sən demə "artsaxın", onun Azərbaycanın tərkib hissəsi kimi tanınması hesabına olmamalıymış...

Maraqlıdır ki, Metakse Akopyandan fərqli olaraq erməni separatçı-quldurlarının rəhbərlərindən olan David Babayan baş verənlərə rəğmən hələ də həyasız bəyanatlarını səsləndirir və müxtəlif iddialarla çıxışlar edir. Babayanın sözlərinə görə, onlar "təməlli sülhə gətirəcək" (???!!!-R.R.) dialoqa qarşı deyillər. Lakin həmin dialoq, yəni Ermənistanla Azərbaycan arasındakı münasibətlər sən demə "artsaxın", onun Azərbaycanın tərkib hissəsi kimi tanınması hesabına olmamalıdır. Məhz bu cür həyasız fikirləri ilə növbəti dəfə gündəmə gələn David Babayan bir az da irəliyə gedərək bunun "qırmızı xətt" olduğunu deyib və hətta "dəhşətli nəticələrə" səbəb olacağını qeyd edib.

### Azərbaycanın ərazilərini tərk etməsələr onda qarşılarında "Yaşma"nı və Azərbaycan SQ-nin digər bölmələrini görməli olacaqlar

Bəli, Babayan və sairləri öz axmaq düşüncəsinə qala bilər, amma həmin düşüncələrinin əslində onun özünə və özü kimi digər separatçı quldurlara hansı təsirləri göstərəcəyinin fərqinə vara bilmir. Əslində "dəhşətli nəticələrdən" dəm vurmaqla bizə tərəf "buynuz" atan bu mənfur separatçı qalığı digər tərəfdən dərk edir ki, əgər separatçılar Azərbaycanın ərazilərini tərk etməsələr onda qarşılarında "Yaşma"nı və Azərbaycan Silahlı Qüvvələrinin digər bölmələrini görməli olacaqlar. Və bu dəfə nə unitazları demontaj etməyə, nə də Qarabağın flora və faunasını məhv etməyə vaxt tapacaqlar.

Beləliklə, son seçim elə onların özlərinindir - ya doğru seçim edib Azərbaycanın qanunları əsasında normal həyatlarını sürməkdə davam edəcək, ya da...

**Rövşən RƏSULOV**

> *"Azərbaycan xalqı özünün milli, mənəvi dəyərlərinə, əxlaqi normalarına və prinsplərinə, əxlaq dəyərlərinə görə dünyaya örnək olan bir xalqdır.*



# "Qanunsuz aksiyalar keçirənlər öz məsuliyyətlərini dərk etməlidirlər"

Çox təəssüflər olsun ki, son vaxtlar cinsi azlıqların bəzi nümayəndələri xaricdən dəstək alaraq Azərbaycanda da özlərinin fəallıqlarını nümayiş etdirmək, cəmləşmək, təşkilatlanmaq fikrindədirlər. Bu, mayın 14-də Fəvvarələr meydanında keçirilən qanunsuz aksiyada da özünü bir daha göstərdi." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədrinin sözlərinə görə, sözsüz ki, qanun hər bir Azərbaycan vətəndaşı üçün eynidir və bu qanunların pozulmasına görə hər bir insan öz məsuliyyətini dərk etməlidir, ancaq bəzi anti-Azərbaycan şəbəkəsinin hayküyçülərinin qanunsuz aksiyasına dəstək verənlər bunu hələ də dərk etmirlər.

"Sözsüz ki, bu aksiyada özünü ictimai fəal, yaxud da bloger kimi, siyasətçi kimi, bir vətən, xalq fədaisi kimi təqdim edənlər bu qanunların pozulmasına etinasızdırlar və onlar qanun qarşısında cavabdehlik daşımaq məsuliyyətini demək olar ki, itiriblər. Əlbəttə ki, bu aksiya bir daha göstərdi ki, daxildə olan anti-Azərbaycan şəbəkəsi xaricdən istiqamətləndirilir və onlar özlərinin götürdükləri öhdəlikləri yerinə yetirmək, müəyyən dividentlər qazanmaq arzusundadırlar. Aksiya keçirilsə də və bu qanunsuz olsa da ancaq Azərbaycan polisi bir sakitlik, səmimiyyət nümayiş etdirdi və demək olar ki, aksiya iştirakçılarına qarşı heç bir güc tətbiq olunmadı. Əlbəttə, bu bir daha göstərir ki, Azərbaycanda söz, mətbuat azadlığı bərqərardır, vətəndaşlara öz fikirlərini söyləmək üçün hər cür imkan yaradılmışdır. Digər tərəfdən, həm də bu ona əsas vermir ki, istənilən vaxt, istənilən müəyyən qruplar qanunsuz mitinqlər keçirməklə əhalinin rahatlığını pozsunlar, Azərbaycan xalqı, Azərbaycan dövləti haqqında xoşagəlməz fikirlər formalaşdırsınlar. Çox təəssüflə qeyd edilməlidir ki, bu aksiyanın dinc şəraitdə, heç bir güc, zor tətbiq edilmədən keçirilməsinə baxmayaraq, Amerika Birləşmiş Ştatlarının, eləcə də Böyük Britaniyanın Azərbaycandakı səfirlikləri bu aksiyanın beynəlxalq normalara cavab verməməsi barədə, eləcə də burada aksiyaçılara qarşı kobud hərəkətlər edilməsi barədə əsassız bəyanatlar səsləndirmişlər. Sual oluna bilər ki, bu gün Ermənistanda insanların hüquq və azadlıqları ciddi şəkildə pozulduğu halda və artıq bir aya yaxındır ki, həmin respublikada kütləvi mitinqlər, aksiyalar, qarşıdurmalar davam etdiyi halda, bu barədə beynəlxalq təşkilatlar, eləcə də ölkələrin səfirləri niyə susurlar? Ancaq Azərbaycanda qanunsuz aksiya təşkil edənlərə qarşı heç bir zor tətbiq edilmədiyi halda, Amerika Birləşmiş Ştatlarının və Böyük Britaniyanın Azərbaycandakı səfirlikləri səfirlərinin mövqeyi başadüşülən deyil. Əlbəttə, bu onu göstərir ki, aksiyaya çıxanlar məhz bu səfirliklərdən müəyyən qaydada təlimatlar alırlar və onların tapşırıqlarını yerinə yetirirlər. Sözsüz ki, Azərbaycan hökuməti bu məsələrdə ciddidir, özünün etirazlarını bildirir və ancaq bir şeyi bilmək lazımdır ki, Azərbaycanın daxili işlərinə qarışmaq üçün heç bir səfirliyə imtiyazlar verilməyibdir. Əgər doğrudan da burada aksiya iştirakçılarına qarşı kütləvi şəkildə zor işlədilibsə, bu əyani faktlar, əyani nümunələrlə sübut olunmalıdır, bildirilməlidir. Ancaq nədənsə əldə heç bir əsaslı fakt olmadan bu iki ölkənin səfirliklərinin anti-Azərbaycan mövqeyindən çıxış etmələri deməyə əsas verir ki, Azərbaycanda olan bu səfirliklər nəinki beynəlxalq hüquq normalarını pozur, eləcə də öz səlahiyyətlərini aşmaqdadırlar. Biz qanuni aksiyaların keçirilməsinin əleyhinə deyilik, ancaq qanunsuz aksiyaların keçirilməsinin qarşısı alınmalı və bu aksiyada insanları itaətsizliyə səsləyənlər haqqında qanunun tələbləri həyata keçirilməlidir. Sözsüz ki, deyilənlər hər bir insan üçün məqbul olmalıdır və qanunsuz aksiyalar keçirənlər öz məsuliyyətlərini dərk etməlidirlər", deyə Tahir Rzayev bildirib.

**İnam Hacıyev**



# Bu müharibəyə qlobal güclər cəlb olunub

"Hazırda Ukrayna-Rusiya müharibəsində üstünlüyün hansı tərəfdə olması və hansı tərəfin qalib gələcəyi ilə bağlı qəti fikir bildirmək bir qədər çətindir. Bir çox ekspertlərin bu müharibənin bir-iki həftə çəkəcəyi ilə bağlı proqnozlarının tam əksinə olaraq görürük ki, müharibə daha çox uzanır və əvvəlki tempdə olmasa da bu ilin sonuna qədər davam edəcəyi real görünür". Bu fikirləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov bildirib.

Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, Rusiya-Ukraya müharibəsində vəziyyət bir qədər fərqlidir: "Çünki Rusiya başqa bir ölkənin ərazisində müharibə aparır və hərbi əməliyyatlar yeni başlayanda geniş maştablı hücumlar həyata keçirdi. Bunun nəticəsində ilk mərhələdə ciddi itkilər verdi. Həm də unutmaq olmaz ki, bu müharibəyə qlobal güclər cəlb olunub, ona görə hər iki tərəf ciddi itki verir, ABŞ başda olmaqla qərbin Ukraynaya verdiyi müasir silahlar və maliyyə yardımı nəticəsində Ukraynanın müqaviməti daha güclənib. Ukrayna bu müharibədə sona qədər getməkdə israrlı görünür. Rusiya tərəfi isə belə görsənir ki, hələ tam hərbi potensialını və canlı qüvvəsini hərbi əməliyyatlara yönəltməyib, çünki istisna etmir ki, hansısa başqa bölgələrdə də hərbi əməliyyatlara cəlb oluna bilər. Rusiya üçün digər çağırış ola bilər ki, bu da ölkə daxilində olan vəziyyətdir, artan sanksiyaların gətirdiyi qadağalar və maliyyə böhranı daxildə Rusiya üçün ciddi problemlər yarada və əhalinin etirazlarına səbəb ola bilər. Göründüyü kimi vəziyyət qeyri-müəyyəndir, demokratik qərb dünyası sona qədər Ukraynanın yanında dayanacağını bildirir, bu isə Rusiyanın işini bir qədər də çətinləşdirir. Guman edirəm ki, getdikcə resurları azalan Rusiya bu müharibəni dayandırmaq üçün bir müddət sonra müəyyən addımlar ata bilər, lakin bu müharibədə qalib tərəfi müəyyən etmək hələ tezdir".

**Abutel İlhamqızı**

***Su probleminin kəskinləşməsi, su ilə bağlı mübahisələr- bütün bunlar bu gün Yaxın Şərq və Şimali Afrikanın bir sıra dövlətləri arasında müşahidə olunur. Bu problem sonda ölkələr arasında münasibətləri münaqişəyə çevrilə bilər. Bu mövzuda "Caliber" analitik mərkəzinin hazırladığı təhlili oxucularımızaın diqqətinə çatdırırıq. Hazırda bəzi dövlətlərin daxilində vəziyyət qeyri-sabitdir. Türkiyə, İran, İraq, Suriya, Misir və Efiopiya bu münaqişələrə dərindən qarışıb.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Su müharibələri başlayır: dünya quraqlıq qarşısında

2006-cı ildə Herzliyadakı (İsrail) Siyasət və Strategiya İnstitutunun Münaqişələrin nizamlanması mərkəzininin direktoru Şmuel Bar Suriya dövlətçiliyinə xələl gətirən bir neçə amili sadalayır. Onların arasında o, iqtisadi vəziyyətin kəskin pisləşməsini və yerlərdə hökumət nəzarətinin tədricən itirilməsinin adını çəkir. Artan işsizlik, siyasi xaos, Suriyanın bir sıra bölgələrində rejim tərəfdarı və əleyhdarı qüvvələr arasında toqquşmaların əsas səbəbi su böhranı olub.

Digər israilli tədqiqatçı, Hayfa Universitetinin və İsrail Müdafiə Qüvvələri Kollecinin coğrafiya professoru Arnon Sofer bu böhranın səbəbləri və nəticələri haqqında yazıb. Onun fikrincə, böhrana hökumətin əhalinin həddindən artıq sürətlə artmasına səbəb olan uğursuz demoqrafik siyasəti və uzun illər sürən quraqlıq səbəb olub. Suriyanın əhalisi 1950-ci ildən bəri 7 dəfə artıb, həm şəhərlər, həm də kənd təsərrüfatı üçün lazım olan su ehtiyatları isə azalıb.

Sofer diqqətə çatdırıb ki, Türkiyə öz ərazisində bəndlər sistemi quraraq Suriyadakı çay suyunun əsas mənbəyi olan Fərat çayından 30 milyard kubmetr suyun yarısını götürüb. Təbii faktorlar quraqlığa səbəb olanda suriyalıların kənd təsərrüfatı işlərini yerinə yetirməsinə insan faktoru da təsir edib. Nəticədə, bir çox fermer və onların ailələri, ümumilikdə 1,5 milyona yaxın insan yoxsulluq zonalarının yarandığı yerlərdən şəhərlərə köçüb. Ənənəvi varlıqlarını itirməkdən və yoxsulluqdan qəzəblənən bu ailə qəbilələri və tayfaları, İsrail və digər ölkə tədqiqatçıların fikrincə, 2011-ci ildə Bəşər Əsədə qarşı qiyamın səbəblərindən biri olan regional üstünlük uğrunda mübarizəyə girdilər və bu da Suriyada vətəndaş müharibəsinə səbəb oldu.

Lakin Türkiyə adətən özünə qarşı bütün bu cür ittihamları rədd edir və qeyd edir ki, birincisi, onun ərazisindən axan çayların sularından öz məqsədləri üçün istifadə etmək hüququ var, ikincisi, Suriya hökuməti öz planlarını daha rasional planlaşdıra bilər- öz iqtisadi kursunu, demoqrafik prosesləri və su siyasətini düzgün mçüəyyənləşdirərək eyni zamanda bir çox problemlərdən qaça bilər.

Son zamanlar iranlılar da Türkiyəyə qarşı su iddiaları irəli sürməyə başlayıblar ki, bu da ölkələr arasında mövcud olan problemlərlə yanaşı, münasibətləri də ciddi şəkildə çətinləşdirir. İranın xarici işlər naziri Hüseyn Əmir-Abdollahian mayın 10-da parlamentdə çıxışı zamanı Türkiyədə tikilməkdə olan yeni bəndləri tənqid edib. O, Türkiyənin layihələrini həm İranda, həm də İraqda su axınını kəsməklə və ətraf mühitə zərər vurmaqla hədələyən "qəbuledilməz" addımlar kimi qiymətləndirib. O, əlavə edib: Türkiyə kimi ölkələrin istər İran, istərsə də İraqdakı ekoloji şəraiti dəyişdirmək üçün hazırkı beynəlxalq mexanizmin olmamasından istifadə etməsinə icazə verməməliyik".

Dəclə çayı Türkiyənin şərqindən qalxır, cənuba axır, Türkiyə ilə Suriya və Suriya ilə İraq arasında sərhəd bölgələrini təşkil edir və İraqda Fəratla birləşərək Şatt əl-Ərəbi əmələ gətirir. İran rəhbərliyinin fikrincə, ötən il Dəclə üzərində açılan Türkiyənin "İlisu" bəndi həm İraq, həm də İran üçün ekoloji təhlükə yaradır. İran rəsmiləri Türkiyəni su siyasəti ilə toz fırtınalarına səbəb olmaqda və "Dəclə və Fəratda su axınının azalması səbəbindən" baş verən quraqlığa səbəb olmaqda ittiham edib.





Türkiyə deyilənlərə məhəl qoymayıb. Xarici İşlər Nazirliyinin mətbuat katibi Tanju Bilgiç İranın iddialarının "elmilikdən uzaq" olduğunu bildirib. Onun sözlərinə görə, Afrika və Yaxın Şərq iqlim dəyişikliyi nəticəsində quraqlıq, torpaqların deqradasiyası, meşələrin qırılması və səhralaşma nəticəsində güclənən toz və qum fırtınalarının mənbəyidir. Transsərhəd sular məsələsinə gəlincə, Türkiyə İranla istənilən "rasional və elmi əməkdaşlığa" açıqdır.

Öz növbəsində, İran üzrə ixtisaslaşmış türk tədqiqatçı Arif Keskin iddia edir ki, Ankara ilə Tehran arasında bir sıra münaqişələrin əsasında su ehtiyatları problemi dayanır. O qeyd edir ki, İran Türkiyənin su siyasətinə cavab olaraq əfqan qaçqınlarının öz ərazisi vasitəsilə Türkiyəyə qeyri-qanuni mühacirətinə şərait yaradır.

"İran rəsmiləri təkcə İranda deyil, İraq və Suriyada da quraqlığın əsas səbəbi kimi Türkiyənin bənd layihələrini təqdim etməyə çalışır. Bəziləri hətta quraqlıq faktorunun səbəb olduğu Suriyadakı qiyamda (2011) Türkiyəni günahlandırdılar. Ona görə də Türkiyə bəndləri ilə İranın milli təhlükəsizliyi arasında əlaqə qururlar... İran özünü Araz çayının məcrasını belə dəyişməyə haqlı sayır, amma Türkiyənin bu qədər bənd tikməyə haqqı olmadığını iddia edir. Onlar bunu İrana qarşı sui-qəsd kimi qələmə verirlər", - deyə Keskin bildirib.

O qeyd edir ki, İran "öz su ehtiyatlarını idarə etməkdə böyük səhvlərə yol verib və indi xalqın qəzəbini Türkiyəyə yönəltməklə bunu ört-basdır etməyə çalışır. Onların kənd təsərrüfatının planlaşdırılması və su ehtiyatlarına əsaslanan məhsul seçimi yoxdur. Onlar məqbul suvarma üsullarından istifadə etmir və bəndlərin ətraf mühitə təsirinin qiymətləndirilməsini aparmırlar. İslam İnqilabı Keşikçiləri Korpusu- SEPAH bu layihələrə nəzarət edir".

İranlı tədqiqatçı Xəlil Xani qeyd edir ki, İranda səhralaşma tempi yüksəkdir, ölkə ərazisinin 20%-dən çoxu bu prosesə məruz qalır. Quraqlıq, ölkənin 18 əyalətini və 97 şəhərini təhdid edir. Ümumilikdə, artıq indiki vaxtda su problemləri bu və ya digər şəkildə İran əhalisinin üçdə birinə, təxminən 30 milyon insana təsir edir ki, bu da kütləvi etirazlara səbəb olur. Hani iddia edir ki, İranın su siyasəti su tutumlu bitkilərin becərilməsi üçün bəndlər tikmək və suyun başqa istiqamətə yönəldilməsi məsələsində səriştəsizliyinə görə günahkardır. O, son 5 onillikdə müxtəlif hökumətlərin heç bir addım atmaması, yanlış siyasət seçməsi və xüsusilə İİKK-nın İran işlərinin bütün aspektlərinə təsiri İranda səhralaşmaya səbəb olan əsas amillərdir.

***Ardı Səh. 15***

# Su müharibələri başlayır: dünya quraqlıq qarşısında

Əvvəli-Səh-14

İran bəndlərinin sayı 2012-ci ildəki 316-dan 2018-ci ildə 647-yə yüksəlib. 2019-cu ildə Tehran quraqlıqdan əziyyət çəkən şəhərlərə su nəql etmək üçün daha 109 bənd tikmək planını açıqlayıb. Hani bir sıra belə layihələrin korrupsiya xarakterini və onların təşkilatçılarının səriştəsizliyini qeyd edir ki, onlar İİKK ilə əlaqədə olmaqla, vəsaitləri mənimsəməklə və ekoloji baxımdan riskli addımlar atmaqla hüquq-mühafizə orqanlarının faktiki müdafiəsini alırlar. Bütün bunlar ölkənin Harun və Zəyəndə Rud çayları kimi həyati əhəmiyyət daşıyan su damarlarının qurumasına, yüz minlərlə fermer təsərrüfatının xarabalığa çevrilməsinə və onların şəhərlərə qaçmasına səbəb olur. Şəhərlərdə yoxsulluq zonaları böyüyür və etirazlar getdikcə güclənir. Bu isə o deməkdir ki, İranı gələcəkdə Suriya üsyanı ssenarisi - Saura təhdid edir.

Maraqlıdır ki, Tehran Türkiyəni tənqid edərək Bağdadın müdafiəsinə qalxdığı halda, öz su siyasəti iraqlıları o qədər qəzəbləndirib ki, onlar İranı Beynəlxalq Ədalət Məhkəməsinə çıxarmağı planlaşdırırlar. Və söhbət təkcə İraq hökumətini qıcıqlandırmaqdan getmir, İraqın özündə sosial etirazların artması bu dövlətin mövcudluğunu təhlükə altına alır.

2019-cu ildə bir neçə milyon iraqlı hökumət qüvvələrinə qarşı döyüşmək üçün küçələrə çıxdı. Bütün siyasi partiyaların qərargahlarını yandırdılar. Hərəkat Bağdadın əsasən şiələrin yaşadığı əraziləri və ölkənin cənubunu əhatə edirdi. Bu, dinlərarası münaqişələrlə bağlı deyildi (İraqda ilk növbədə şiə partiyaları da hakimiyyətdədir), lakin onun dərin sosial kökləri var idi. Üsyançıları siyasi partiyaları rədd etdilər. Paytaxtda və cənub bölgələrində üfüqi müqavimət şəbəkələri qurdular, sosial təbəqələr və yoxsul ərazilər üçün iş, mənzil, elektrik enerjisi, pulsuz tibbi xidmət və... təmiz su tələb etdilər.

Etirazların əsas səbəblərindən biri də içməli suyun olmaması olub. İran suyun bir hissəsini İraqın Bəsrə şəhərinin yerləşdiyi Şatt əl-Ərəb çayına axan Harun çayından götürür. Bu, çayda suyun həcminin azalmasına və onun çirklənməsinin artmasına səbəb olur. Nəticədə iki milyon əhalisi olan, içməli su ilə bağlı kəskin problemlər yaşayan və kütləvi zəhərlənmə tarixi olan Bəsrə İraqda etirazların episentrinə çevrilib.

Bununla belə, yuxarıda sadalanan bütün böyük problemlər və münaqişələr Misir və Efiopiya arasında Böyük Efiopiya İntibah Anbarı ilə bağlı mübahisənin mümkün nəticələrinə baxanda solğun görünür.

Efiopiya bu gün Nil çayının əsas qolu olan Mavi Nil üzərində 6000 MVt gücündə və dəyəri 2000 MVt olan nəhəng bənd və su elektrik stansiyası (GERD) tikərək Afrika qitəsində elektrik enerjisi istehsalında lider olmağı hədəfləyir. Efiopiya ailələrinin 60%-ni və inkişaf edən sənayeni elektrik enerjisi ilə təmin etmək üçün 5 milyard dollar lazımdır. GERD olmadan ölkənin elmi və sənaye modernləşdirilməsi və urbanizasiyası mümkün deyil.

Misir, Sudan və Efiopiya illərdir ki, bəndlə bağlı şiddətli mübahisələrə qarışıb. Hərbi münaqişə təhlükəsi ilə bağlı artan qorxular fonunda iş dayandı. Misir və Sudan Efiopiyanı bəndin doldurulması və istismarı prosesini, eləcə də yağışın az olduğu quraq illərdə necə işləyəcəyini tənzimləyəcək hüquqi razılaşma ilə razılaşmağa inandıra bilmədilər. Nəticədə, Efiopiyanın aşağı axar ölkələrə axıdacağı suyun miqdarı azalacaq. Misirdə bunun milyonlarla kəndlinin məhvinə, sosial və siyasi fəlakətə, yeni ərəb baharına və ya 2011-ci il Suriya qiyamının analoquna gətirib çıxaracağından qorxurlar. Buna görə də Misir rəhbərliyi dəfələrlə Efiopiyaya qarşı qorxulu bəyanatlar verib, onu hədələyib. Ancaq bunlar Efiopiyanın vecinə olmadı. GERD güclü hava hücumundan müdafiə sistemləri ilə qorunur və hərbi möhkəmləndirilmiş ərazi ilə əhatə olunub.

Ölkələrin ümumi sərhədi olmasa da, ciddi silahlı qüvvələri və çoxlu əhalisi var. Bənddən narazı olan Sudan da Misir tərəfində münaqişəyə cəlb oluna bilər. Bundan əlavə, Sudanın Efiopiya ilə ərazi mübahisələri var və bəzən sərhəd bölgələrində bu dövlətlər arasında silahlı toqquşmalar baş verir.

Yekun olaraq qeyd etmək olar ki, su problemi istər Yaxın Şərq ölkələri arasında münasibətlərdə, istərsə də bu dövlətlərin daxilində baş verən daxili böhranlar, sosial fəlakətlər, üsyanlar baxımından getdikcə mərkəzi və ya ən azı əsas problemlərdən birinə çevrilir. Hər iki fenomen əlaqəlidir. Su problemlərindən qaynaqlanan inqilablardan qorxan ölkələr bir-biri ilə getdikcə daha çox münaqişəyə girir, günahı qonşularının üzərinə atmağa çalışırlar. Bundan əlavə, işçilərin və yoxsulların sosial şərtləndirilmiş qəzəbinin başqa hökumətlərə və xalqlara ötürülməsini təmin etmək hakim dairələr üçün sərfəlidir - millətçilik sosial üsyanların ən yaxşı dərmanıdır.

Lakin əhalinin artımı, sənaye və kənd təsərrüfatının modernləşdirilməsi, məhdud su həcmləri və səriştəsiz siyasət nəticəsində regionun su problemləri o qədər kütləvidir ki, zaman keçdikcə bütün Yaxın Şərqi bürüyəcək böyük siyasi və sosial böhrana səbəb ola bilər.

***Müəllif- Maksim Petrov***
***Tərcümə- Elçin Bayramlı***

# "Neftin qiymətlərindəki dəyişikliklər birbaşa müharibənin nəticəsidir"



***"Bildiyimiz kimi pandemiya dövrü neftin qiymətləri özünün tarixi rekorduna enərək, 14 dollara qədər enmişdir. Lakin post-pandemiya dövrü iqtisadi aktivlik artdıqca neft qiymətlərində də artımlar müşahidə etməyə başladıq". Bu sözləri SİA-ya iqtisadçı Eldəniz Əmirov bildirib.***

Onun sözlərinə görə, bu artımlarda dalğalanmalar olduğundan hansı dövrdə nə qədər artımlar olacağını proqnozlaşdırmaq çətin idi: "Çünki burada virusun təsiri, peyvəndin müsbət təsiri, iqtisadi avtivliyin bərpa olunması kimi proseslər qiymətlərə kəskin təsir göstərirdi. Buna görə də iqtisadi aktivliyin gözlənilməndən daha normal formalaşması neft qiymətlərinin 70 dollar və daha yuxarı qalxmasına gətirib çıxardı. Amma daha sonra Rusiya və Ukrayna arasında olan müharibənin qızışması, hələ ilkin siqnallar neftin qiymətinə tətikləyici təsir göstərdi. Yəni qiymətin artmasına imkan yaratdı. Bunun ardından isə müharibənin başlaması neft qiymətlərində kəskin qalxma təsiri yaratdı. Belə ki, hadisələrin hansı formada cərəyan edəcəyi neft idxal edən ölkələr üçün qaranlıq idi. Yəni neftin qiymətlərində baş verən dəyişikliklər birbaşa müharibənin nəticəsi idi.

Təbii olaraq, neft gəlirlərinin ölkəyə daxil olması isə bizim üçün müsbət dividentlərdir. Ölkəyə pul kütləsinin daxil olmasına imkan yaradır. Ölkənin valyuta ehtiyyatlarının artmasına gətirib çıxarır ki, bu da ölkədə həm iqtisadi islahatların, həm də investisiya layihələrinin yerinə yetirilməsi üçün yaxşı fürsətlər yaradır".

***Səbinə Hüseynli***

***"Rusiya və Ukrayna arasında baş verən müharibədən sonra dünya artıq ərzaq təhlükəsizliyinin astanasındadır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov deyib.***



# Ərzaq qiymətlərinin bahalaşmasını şərtləndirən əsas faktorlar

Onun sözlərinə görə, Rusiya və Ukrayna arasında gedən müharibədə bir çox məsələlərdə problemlər ortaya çıxır: "Bilirsiniz ki, biz buğda və dənli bitkiləri xüsusilə Rusiya, Qazaxıstan və Ukraynadan əldə edirik. Rusiya və Ukrayna buğda və dənli bitkilərin dünyaya ticarətinin 30 faiz pay sahibidir. Yəni dünyaya ixrac olunan buğdanın 25-30 faizi bu ölkənin payına düşür. Bu da çox ciddi rəqəmlərdir. Bilirsiniz ki, Ukrayna öz məhsullarını ixrac etmək üçün xüsusilə Qara dənizdə yerləşən limanlardan istifadə edir və bu günlərdə həmin limanlarda çıxışı tamamilə məhdudlaşdırılıb. Yəni Rusiya tərəfindən işğal olunub.

Təqribən bu ixracın 95 faizi artıq məhdudlaşdırılıb. Öz məhsulunu dünya bazarına çıxarda bilmir. Rusiyaya tətbiq olunan sanksiya və qadağalar da Rusiyanın bir çox sahədə vəziyyətini çətinləşdirir. Bu istiqamətdə artıq təhdidlər görməyə başlayırıq. İdxal etdiyimiz digər bir ölkə də Qazaxıstandır. Qazaxıstan Mərkəzi Asiyada yerləşir və orada taxıl, buğda eyni zamanda digər dənli bitkilərin ucuz olduğunu nəzərə alaraq artıq qonşu ölkələr özlərində bu sahədə məhsul istehsal etmirlər. Qazaxıstandan əldə etməyə başlayır. Bundan başqa biz şəkər, yağ kimi məhsullarımızı xüsusilə Rusiya, Ukrayna və Belarusiyadan əldə edirik. Tətbiq olunan sanksiya və məhdudiyyətlər də eyni zamanda baş verən müharibə bu məhsulların bahalaşmasına gətirib çıxardır. Düşünürəm ki, bu 6 ay ərzində piştaxtalarda biz qiymət artımını müşahidə edəcəyik".

***Arzu Qurbanzadə***

SON SƏHİFƏ
SƏS
21 may
2022-ci il



# Şagirdlərdən nə üçün pul yığırlar?

***B**ildiyimiz kimi son zamanlar məktəblərdə rüşvət halları yenidən artıb. Buna qarşı bir çox tədbirlər görülsə də problem hələ də davam edir. Ötən gün Suraxanı rayonunda olan məktəbdə də belə hal baş vermişdi. SİA məktəblərdə olan rüşvət halları ilə bağlı təhsil məsələləri üzrə ekspert Elçin Əfəndinin fikirlərini öyrənib.*

Onun sözlərinə görə, haqqında sözügedən məktəblə bağlı hər hansı bir iddia varsa, şagirdin valideyni Bakı şəhər üzrə Təhsil İdarəsinə müraciət etməli, eyni zamanda Təhsil Nazirliyinə məlumat verməlidir: "Əlbəttə hər hansı bir məktəbdə korrupsiya faktı varsa, müvafiq şəxslər rüşvətə meyllidirsə bunun qarşısını almaq üçün ilk növbədə valideyn müvafiq aidiyyatı orqanlara müraciət etməlidir".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Valideyn burada əsaslandırmalıdır ki, "şagirddən ödənişi nə üçün yığırlar?". İstənilən halda hər hansı bir ödənişin yığılması qanunla yolverilməzdir. Burada yalnız könüllü formada hər hansı bir valideynin ödəniş ödəməyindən söhbət gedə bilər. Başqa digər hallarda hər hansı bir valideyn məktəb və məktəb rəhbərliyinə və yaxud da müəllimlərə ödəniş verməməlidir.

Rüşvətin qarşısını almağın ən sadə yolu konkret olaraq rüşvətə meyl edən şəxsin vəzifəsindən azad edilməsi, eyni zamanda həmin şəxsin növbəti dövrlərdə hər hansı bir əmək fəaliyyəti ilə məşğul olmasına icazə verilməməlidir. Yalnız bu halda biz korrupsiyanın qarşısını ala bilərik. Əks halda əlbəttə müvafiq tədbirlər görülmədiyi zaman bütün sahələrdə korrupsiya faktı olacaq. Bunun da həlli üçün birbaşa Təhsil Nazirliyi müvafiq olaraq addımlar atmalıdır. Söhbət qəti addımlardan gedir. Təkcə haqqında sözügedən məktəbdə deyil, bütün məktəblərdə bu



addım atılmalıdır. Yəni, biz təkcə 141 saylı məktəbdə bu gün bu hal var, başqalarında yoxdur deyə bilmirik. Əgər Təhsil Nazirliyi problemi həll edə bilməsə, o zaman valideynlər müvafiq olaraq qanunvericiliklə məsələnin həlli üçün aidiyyatı qurumlara şikayət etməlidirlər".

***Ayşən Vəli***

# Mane "Liverpul"u bu kluba dəyişir




*"Liverpul" futbolçusu Sadio Mane karyerasını Fransada davam etdirməyə yaxındır. Milli.Az Offsideplus.az-a istinadən xəbər verir ki, PSJ 30 yaşlı seneqallı hücumçunu heyətinə qatacaq. Paris klubu yayda "merisaydlılar"la danışıqlar masasına oturacaq. Afrikalı forvardın İngiltərə nəhəngi ilə sözləşməsi 2023-də başa çatır. Qeyd edək ki, Mane 2016-cı ildən "Liverpul" forması geyinir.*

# Dünyanın ən bahalı avtomobili 135 milyon avroya satılıb

***1955-ci ilin "Mercedes-Benz 300 SLR" modeli Almaniyada keçirilən hərracda rekord qiymətə - 135 milyon avroya satılıb. Belə ki, hərrac Ştutqartdakı "Mercedes-Benz" muzeyində baş tutub.***



Nadir avtomobilə edilən təklif 2018-ci ildə 48,4 milyon dollara satılan "Ferrari" avtomobilinin 1962-ci ildə istehsal olunan "250 GTO" modelinə edilən təklifdən 90 milyon avro çoxdur.

"Mercedes-Benz 300 SLR" 1955-ci ildə Rudolf Uhlenhout-un rəhbərlik etdiyi şirkətin yarış departamenti tərəfindən hazırlanmış iki prototipdən biridir.



# Qubada 5 il əvvəl törədilən qətlin üstü açılıb

***B**aş Prokurorluq, Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyi Penitensiar Xidməti əməkdaşlarının birgə fəaliyyəti nəticəsində əvvəlki illərdən bağlı qalmış daha bir xüsusilə ağır-qəsdən adam öldürmə cinayətinin üstünün açılması təmin edilib. SİA-nın xəbərinə görə, bu barədə Baş Prokurorluq və Daxili İşlər Nazirliyi birgə məlumat yayıb.*

Belə ki, 7 iyul 2017-ci il tarixdə Quba rayonunun Küpçalqışlar kəndi ərazisindəki Qudyalçayın üzərindəki körpünün altında yandırılan "VAZ-2106" markalı avtomobilin içərisində Xaçmaz rayon sakinləri 1984-cü il təvəllüdlü Rəhman İşıqov və 1998-ci il təvəllüdlü Ülviyyə Məmmədovaya məxsus yanmış meyitlərin aşkar olunması faktı üzrə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb istintaq aparılsa da, cinayəti törətmiş şəxsi (şəxsləri) müəyyən etmək mümkün olmadığından iş üzrə icraat dayandırılmışdır.

Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən cinayət işi yenidən öyrənildikdən sonra 25.04.2022-ci il tarixdə iş üzrə dayandırılmış icraat təzələnmiş, həyata keçirilmiş çoxsaylı istintaq və əməliyyat tədbirləri ilə, Xaçmaz rayon sakini 1994-cü il təvəllüdlü Osman Ömərovun 06 iyul 2017-ci il tarixdən 07 iyul 2017-ci il tarixə keçən gecə Ülviyyə Məmmədova və Rəhman İşıqovla yaşadığı kəndin ərazisində görüşüb aralarında yaranmış mübahisənin gedişində Ülviyyə Məmmədovanı deşici alətlə vurub xəsarət yetirməsindən sonra Rəhman İşıqovla aralarında baş vermiş mübahisə ilə əlaqədar üzərində gəzdirdiyi bıçaqla sonuncunun bədəninin müxtəlif nahiyyələrinə xəsarətlər yetirib, daha sonra cinayətin izini itirmək üçün yol-nəqliyyat hadisəsi görüntüsü yaratmaq məqsədilə Ülviyyə Məmmədova və Rəhman İşıqovun meyitlərini sonuncuya məxsus avtomobilin içərisində Qudyalçayın üzərindəki körpünün altında yandırmasına əsaslı şübhələr müəyyən edilmişdir.

Toplanmış mötəbər sübutlar əsasında Osman Ömərov 19 may 2022-ci il tarixdə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə hazırda iş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir. Əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması daim diqqət mərkəzində saxlanılmaqla bu istiqamətdə digər hüquq mühafizə orqanları ilə birgə işlər davam etdirilir.

## BAŞSAĞLIĞI

Bəhruz Quliyev SƏS Media Qrupunun kollektivi adından tanınmış jurnalist **Qadir İbrahimlinin** vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**